Основную группу составили 25 (37%) пациенток с СПКЯ в постменопаузальном периоде. В группу сравнения были включены 43 (63%) здоровые женщины, без клинических признаков эндокринной патологии. Среди наблюдаемых пациенток средний возраст наступления менопаузы составлял – 48,5±2,7 лет, что на 1,5-2 г. раньше, чем в общей популяции. Длительность течения климактерического синдрома на момент исследования составила 4,8±1,8 г. Выявлено преобладание тяжелых и среднетяжелых форм климактерического синдрома (67%) над легкими, что не характерно для данного возраста. Симптомы нейровегетативной дисфункции выявлены в 93% случаев. Чаще наблюдались потливость, склонность к отекам, приливы и сердцебиения. Недержание мочи при физической нагрузке, сухость во влагалище беспокоили 62,86±9,52% обследуемых женщин. В 56% случаев отмечены нарушения памяти и настроения, в том числе тревожность, апатия, склонность к депрессиям, психосоматические расстройства. Обменно-эндокринные нарушения составили 63%. Выявлено повышение уровня инсулина у 15 пациенток.

При УЗИ выявлено увеличение яичников со множественными кистозными образованиями. У 18 пациенток выявлен достоверно повышенный уровень свободного тестостерона. У 33% пациенток индекс ЛГ/ФСГ составил 3. Уровни ДГЭАС были выше у 12 исследованных женщин с СПКЯ в постменопаузе, в сравнении с контрольной группой с одинаковым возрастом, но не с ИМТ, что свидетельствует о смешанной форме

Таблица 1

Клинико-биохимическая характеристика женщин с предполагаемым фенотипом СПКЯ и здоровых женщин

Показатели	**СПКЯ**	**Контроль**	**p**
Количество пациенток	25	43	-
Возраст	54,2±2,5	55,7±3,1	NS
Длительность менопаузы	4,8±1,8	2,9±1,3	<0,01
Индекс массы тела (кг/м ^{2})	29,7±1,4	23,9±3,3	<0,001
Окружность талии (см)	98,2±5,4	78,6±8,9	<0,001
Общий холестерин (ммоль/л)	6,3±1,0	6,0±1,0	<0,01
ЛПНП-холестерин (ммоль/л)	4,0±1,7	3,7±1,0	<0,01
ЛПВП-холестерин (ммоль/л)	1,5±0,4	1,7±0,5	<0,001
Триглицериды (ммоль/л)	1,9±1,2	1,3±0,7	<0,001
Тестостерон (нмоль/л)	0,64±0,52	0,58±0,42	NS
Эстрадиол (пмоль/л)	26,35±16,3	21,22±14,1	<0,005
ДГЭАС (мкмоль/л)	1,68±1,04	1,51±2,11	NS
Андростендион (нмоль/л)	1,22±0,59	1,16±0,55	<0,05
Глюкоза плазмы (ммоль/л)	5,9±1,5	5,2±0,8	<0,01
Иммунореактивный инсулин в плазме (пмоль/л)	128,2±78,2	84,7±54,9	<0,01
HOMA-IR	6,84±4,8	2,93±2,5	<0,005
Систолическое артериальное давление (мм рт.ст.)	145±19	142±23	NS
Диастолическое артериальное давление (мм рт.ст.)	78±2,9	75±1,4	NS

Примечание: NS (non-significant) – p >0,05

СПКЯ и стертой форме адреногенитального синдрома. ИМТ у женщин с СПКЯ составил 29,7±1,4 кг, соотношение талии и бедер (ОТ/ОБ) 0,96±0,08, окружность талии (ОТ) 98,2±5,4 см. При выявлении дефицита витамина D3 чаще выявлялась ИР, характеризующийся повышением индекса инсулинорезистентности (HOMA-IR) и нарушением липидного обмена по сравнению с пациентками СПКЯ, но без недостаточности витамина D. У пациенток с СПКЯ в диагностирована выраженная гиперлипидемия. Изучение зависимости между наличием СПКЯ в анамнезе и показателями липидного спектра крови определило, что у пациенток с СПКЯ в анамнезе установлены достоверно высокий уровень холестерина (p<0,01), триглицеридов (p<0,001); тенденция к увеличению содержания ХС-ЛПНП и уменьшению ХС-ЛПВП (4,0±1,7 ммоль/л и 3,7±1,0 ммоль/л). Однако ни ИМТ, ни ОТ не коррелировали достоверно с уровнем ХС-ЛПНП.

Обсуждение. Выявлено, что у женщин с избыточной массой тела в постменопаузе и СПКЯ накопление абдоминального жира выше, чем у женщин контрольной группы того же возраста и ИМТ. Поскольку ИМТ не учитывает распределение жира в организме, ожирение, определяемое ОТ, имеет более высокую чувствительность и специфичность для выявления наличия ИР [7]. СПКЯ часто характеризуется абдоминальным ожирением, независимо от ИМТ, в постменопаузе происходит увеличением объема жировой массы и перераспределением жира в области живота [5]. Это позволяет полагать, что наличие СПКЯ в анамнезе еще более усугубляет нарушенный липидный обмен в климактерии, тем

самым способствуя развитию кардио-васкулярных заболеваний в поздние сроки постменопаузы. У женщин с СПКЯ повышенный уровень андрогенов не снижается в постменопаузе, что подтверждают данные ряда исследований [8]. Женщины с СПКЯ подвержены повышенному риску развития метаболического синдрома, включая висцеральное ожирение, ИР и нарушения липидного обмена. Совокупность висцерального ожирения, повышенного АД и нарушений метаболизма липидов и глюкозы, составляющих метаболический синдром, может оказывать негативное влияние на сердечно-сосудистую систему при СПКЯ. Ожирение является неотъемлемой чертой примерно 60% женщин с СПКЯ. Текущее исследование не обнаружило заметного влияния изолированной гиперлипидемии на состояние сердечно-сосудистой системы при СПКЯ. Результаты проведенного исследования подтверждают имеющиеся данные о взаимосвязи между состоянием сердечно-сосудистой системы и наличием депрессивных симптомов у женщин с СПКЯ.

Заключение. Клинической особенностью климактерического синдрома при наличии СПКЯ в анамнезе является редкая встречаемость и слабая интенсивность горячих приливов, подавление менопаузального пика гонадотропинов, выраженность местных урогенитальных симптомов. С возрастом, у женщин с СПКЯ в анамнезе, инсулинорезистентность и дислипидемия могут способствовать раннему возникновению сердечно-сосудистых заболеваний и сахарного диабета типа 2. Патогенетическое лечение женщин с СПКЯ в анамнезе в постменопаузальном периоде должно проводиться с целью профилактики атеросклеротических и метаболических осложнений.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. American Diabetes Association. Diagnosis and classification of diabetes mellitus // Diabetes Care. 2004;27(1):S5-S10. DOI: 10.2337/diacare.27.2007.s5.
2. Forslund M., Landin-Wilhelmsen K., Schmidt J., et al. Higher menopausal age but no differences in parity in women with polycystic ovary syndrome compared with controls // Acta Obstetricia et Gynecologica Scandinavica. 2019; 98(3): 320-326. DOI:10.1111/aogs.13489
3. Kahn S.E. The relative contributions of insulin resistance and beta–cell dysfunction to the patophysiology of Type 2 diabetes // Diabetologia. 2003; 46: 3-19. DOI: 10.1007/s00125-002-1009-0
4. Kałużna M., Nomejko A., Słowińska A., et al. Lower sexual satisfaction in women with polycystic ovary syndrome and metabolic syndrome // Endocr Connect. 2021;10(9):1035-1044. DOI: 10.1530/EC-21-0257.
5. Markopoulos M.C., Rizos D., Valsamakis G., et al. Hyperandrogenism in women with polycystic ovary syndrome persists after menopause // J Clin Endocrinol Metab. 2011; 96 (3): 623–631. DOI: 10.1210/jc.2010-0130
6. Monteleone P., Mascagni G., Giannini A., et al. Symptoms of menopause—Global prevalence, physiology and implications // Nature Reviews Endocrinology. 2018; 14(4): 199–215. DOI: 10.1038/nrendo.2017.180
7. Rask E., Olson T., Soderberg S. Tissue-specific dysregulation of Cortisol metabolism in human obesity // Journal of Clinical Endocrinology & Metabolism. 2001; 86(3): 1418-21. DOI: 10.1210/jcem.86.3.7453
8. Weltb C.K., Carmina E. Lifecycle of polycystic ovary syndrome (PCOS): from in utero to menopause // J Clin Endocrinol Metab. 2013; 98(12): 4629-4638. DOI: 10.1210/jc.2013-2375.

XÜLASƏ

MENOPOZADAN SONRAKI DÖVRDƏ YUMURTALIQLARIN POLİKİSTİK SİNDROMUNUN HORMONAL, METABOLİK XÜSUSİYYƏTLƏRİ

Səfərova S.S.

Azərbaycan Tibb Universiteti, II daxili xəstəliklər kafedrası, Baku, Azerbaijan

Yumurtalıqların polikistik sindromunda (YPS) hormonal homeostazın pozulması postmenopozal dövrdə olan qadının bədənində bir sıra dəyişikliklərə səbəb olur. Yaşlaşdıqca, YPS olan qadınlarda insulin müqaviməti və dislipidemiya kimi metabolik pozğunluqlar ürək-damar xəstəliklərinin, tip 2 diabetin və xərçəngin erkən başlamasına səbəb olur və bu sindromla əlaqəli ömür boyu sağlamlıq risklərini vurğulayır. Postmenopozal dövrdə YPS olan qadınların patogenetik müalicəsi aterosklerotik və metabolik ağırlaşmaların qarşısını almaq üçün aparılmalıdır.

Açar sözlər: postmenopauza, yumurtalıqların polikistik sindromu, insulinə müqavimət.

SUMMARY

HORMONAL, METABOLIC FEATURES OF POLYCYSTIC OVARY SYNDROME AFTER MENOPAUSE

Safarova S.S.

Azerbaijan Medical University, Department of Internal Medicine II, Baku, Azerbaijan

Violation of hormonal homeostasis in polycystic ovary syndrome (PCOS) causes a number of changes in the body of a woman in the postmenopausal period. With increasing age, in women with PCOS, metabolic disturbances such as insulin resistance and dyslipidaemia predisposes to early onset of cardiovascular disease, type 2 diabetes, and cancer, highlighting the lifelong health risks associated with this syndrome. Pathogenetic treatment of women with PCOS in the postmenopausal period should be carried out in order to prevent atherosclerotic and metabolic complications.

Keywords: postmenopause, polycystic ovary syndrome, insulin resistance.

Redaksiyaya daxil olub: 22.06.2022
Çapa tövsiyə olunub: 20.07.2022
Rəyçi: Professor R.M.Məmmədhəsənov

Tibb və Elm Jurnalı, №3 (29) 2022, 46-50

İLKİN HƏSSAS, MONO- VƏ POLİREZİSTENT VƏRƏMLİ XƏSTƏLƏRİN MÜALİCƏSİNƏ COVID-19 VİRUS İNFEKSİYASININ TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

[1]Osmanova R.R.*, [1]Qasımov İ.A., [1]Murquzova N.M., [2]Əliyeva G.R.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, ftiziatriya şöbəsi[1] və pulmonologiya şöbəsi[2], Bakı, Azərbaycan

Tədqiqatın məqsədi COVID-19 xəstəliyi zamanı vərəm xəstələrində klinik xüsusiyyətlərin izlənməsi, COVID-19 infeksiyası ilə birlikdə vərəmli xəstədə klinik gedişin xüsusiyyətlərinin müşahidəsi, COVID-19 infeksiyasının vərəm xəstəliyinin gedişinə və proqnozuna təsiri və COVID-19 xəstəliyi zamanı laborator müayinələrinin qiymətləndirilməsidir.

Açar sözlər: COVID-19, vərəm xəstəliyi, komorbid xəstəliklər, dərmana davamlılıq, vərəm mikobakterialları (VMB).

Vərəm xroniki gedişli infeksion xəstəlikdir. Xəstəliyin epidemioloji vəziyyətinin stabilləşməsi hadisələrin erkən aşkar olmasından, vərəmin effektli müalicəsindən birbaşa asılıdır [1-3]. Ölkəmizdə bu sahədə çox mühüm tədbirlər həyata keçirilmişdir. Yeni diaqnostik mərkəzlərin yaradılması, müasir avadanlıqlarla təmin olunmuş xəstəxanaların istifadəyə verilməsi ilə yanaşı insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlər və s. vərəmin epidemioloji vəziyyətinə birbaşa təsir edən amillərdən sayılır [2].

Son illər orqanizmin immun sisteminə birbaşa təsir edən COVID-19 pandemiyası dövründə vərəm infeksiyasının yayılmasının qarşısının alınması çox önəmli və aktual problemlərdən biri sayılır [3-5]. COVID-19 pandemiyası bütün dünyada xəstəliyə qarşı mübarizədə irəliləyişi ciddi şəkildə sarsıtdı, vərəmdən ölümlər on ildən artıq müddətdə ilk dəfə artdı. 2020-ci ildə vərəmdən ölənlərin sayı 2019-cu illə müqayisədə artıb, vərəm diaqnozu qoyulan, müalicə olunan və ya profilaktikası edilənlərin sayı xeyli azalıb. Bəzi ölkələrdə COVID-19-dan ölüm nisbəti 7-8%-ə çatırsa, dərmana davamlı vərəmdən 70%-ə çatır, dərmana davamlı vərəmdən ölüm riski 40%-i ötür [6-9].

Vərəmə görə tibbi risk əlamətlərinə (HİV infeksiyası, alkoqolizm, narkomaniya, siqaret və s.) COVID-19 xəstəliyinə şübhəli olanların və yoluxanların da əlavə olması lazımdır [6, 7].

Material və metodlar. Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnsitutunda 2020-2021-ci illər ərzində müalicə alan 87 COVID-19/vərəm xəstələrinin retrospektiv olaraq sənədləri araşdırılmışdır. Təhlildə ilkin və təkrar aşkar edilmiş fəal vərəm hadisələri arasında ağciyər və ağciyərdən kənar üzvlərinin vərəminin rast gəlmə tezliyi, vərəm xəstəliyinin klinik formalarına görə paylanması, bəlğəmin sadə mikroskopiya və GeneXpert MBT/Rif. üsulu ilə müayinəsi, bəlğəmdə VMB-nın birinci və ikinci sıra preparatlarına Levenşteyn-Yensen üsulu ilə həssaslığın təyini, rentgenoloji nəticələrin qiymətləndirilməsi, yanaşı xəstəliklərin təyini, COVID-19 görə əsnək-burundan yaxmanın nəticələri dəyərləndirilmişdir:

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) meyarlarına uyğun bakterioloji və rentgenoloji nəticələrə əsasən xəstələrin diaqnozu təsnif edilmişdi. Bundan əlavə, COVID-19 xəstələrin idarə olunması üzrə metodik təlimatlara uyğun olaraq COVID-19 xəstələrin ağırlıq dərəcəsi və diaqnozu qoyulmuşdur [4, 5].

Nəticələr və müzakirələr. Şək. 1-dən görünür ki, qadınlarla müqayisədə kişilər arasında COVID/vərəm hadisələri 2,48 dəfə daha çox rast gəlməsi müşahidə edilmişdir. Belə ki, xəstələr arasında 28,7% (n – 25) qadın, 71,3% (n – 62) kişilər təşkil etmişdir.

Müxtəlif yaşlarda COVID/vərəm hadisələri müşahidə olunmuş, lakin 50-60 yaş qrupunda COVID-19 yoluxma riski daha yüksək olduğu qeyd edilmişdirir.

İlkin xəstələr arasında yoluxma riski 18,4% (n – 16), təkrar xəstə arasında 32,2% (n – 28), residiv zamanı isə yoluxma riski 35,6% (n – 31) hallarda müşahidə edilmişdir. Uğursuz müalicəni bitirən və təkrar spesifik terapiyaya başlayan xəstələr arasında COVID-19 yoluxma 13,8% (n – 12) hallarda müşahidə edilmişdir (Şək. 2).

Lakin daha dəqiq araşdırmalar onu göstərir ki, ilkin xəstələr arasında vərəm xəstəliyinin yoluxma müddətindən asılı olaraq COVID-19 infeksiyası ilə xəstələnmə riski fərqlidir. İlkin vərəm xəstəliyinə məruz qalan pasiyentlərin arasında COVID-19 infeksiyasına yoluxma riski ilkin ayda daha yüksək olur (Şək. 3). Birinci sıra vərəməleyhinə müalicə alan xəstələr (n – 16) arasında 13,8% (n – 12) COVID-19 infeksiyasına yoluxma birinci ayda müşahidə edilmişdir.

*e-mail: romella.osmanli@gmail.com



Şək. 1. Müxtəlif yaş qruplarında COVID-19/vərəmə yoluxma halları.



Şək. 2. Dispanser müşahidəsinin müxtəlif qruplarında COVID-19 infeksiyasına yoluxma halları.



Şək. 3. Dispanser müşahidəsində olan xəstələrin COVID-19 infeksiyası ilə yoluxma halları.

ÜST-ün təsnifatına görə vərəm xəstəliyini lokalizasiyasından asılı olaraq pasiyentlərin arasında ağciyər vərəm patologiyaları daha sıx rast gəlinirdi. Ağciyər vərəmin formaları arasında COVID-19/vərəm xəstələrdə ən çox infiltrativ vərəm aşkarlanmış, 23% hallarda (n – 20) rentgenoloji olaraq dağılma boşluqları aşkar edilmişdir (Şək. 4). Hər iki ağciyərlərin vərəmi ilə COVID-19 infeksiyasına yoluxma halları 47 xəstədə (54,2%) müşahidə edilmişdir.



Şək. 4. Ağciyər vərəminin müxtəlif formaları arasında COVID-19 ilə xəstələnmə nisbəti.

Vərəm və COVID-19 xəstəliklərin klinik gedişatına yanaşı xəstəliklərin də təsiri az deyil. COVID-19 xəstəliyinin kəskin gedişatından 75,8% xəstədə (66 xəstə) tənəffüs çatmamazlığı müşahidə edilmişdir. Yanaşı xəstəliklərin təhlili onu göstərdi ki, 25,3% hallarda şəkərli diabetin müxtəlif formaları (tip 1 və 2), 9,2% (n – 8) hallarda qara ciyər xəstəlikləri, 15% (n – 13) hallarda isə müxtəlif mənçəli ürək-damar xəstəlikləri müşahidə edilmişdir.

COVID-19/vərəm xəstələrində COVID-19 infeksiyası ilə yoluxan xəstələri ilə müqayisədə şikayətlər eynidir. Bu səbəbdən, tibbi müəssisələrə stasionar və ambulator şəraitdə müayinəyə və müalicə məqsədilə müraciət edən xəstələr arasında vərəm xəstəliyinə görə diqqətli olmaq vacibdir.

COVID-19/vərəm xəstələr COVID infeksiyasının klinik əlamətləri əmələ gələndən sonra müxtəlif dövrdə mütəxəssisə müraciət edirlər. Nəticədə, əsnək-burundan götürülən yaxmanın PZR nəticələrində bəzi hallarda mənfi olur. 35,6% (n – 31) xəstə klinik əlamətlərinin ikinci həftəsindən başlayaraq müraciət edir. Əsnək-burundan götürülən yaxmada 24,1% (n – 21) xəstədə COVID-19 aşkarlanmamışdır (Şək. 5).



A. Əsnək-burundan COVID-19 COVID-19 infeksiyası ilə yoluxma müddəti.



B. Xəstənin xəstəxanaya qədər virusunu müəyyən edən PCR testin nəticələri

Şək. 5. COVID-19 infeksiyasına görə müayinə nəticələri.

COVID-19/vərəmli xəstələrdə vərəm xəstəliyinin diaqnostikası üçün bəlğəmin vərəm mikrobakteriyalarına görə müayinə edilməsi məqsədilə xəstənin bəlğəmini sadə mikroskopiya, Gene-Xpert/Rif müayinəsi, duru və bərk qidalı mühitdə əkilməsi önəmlidir. Sadədən mürəkkəbə prinsipini

qoruyaraq, ilk növbədə xəstələrin bəlğəmi GeneXpert müayinəsi və sadə mikroskopiyası olunmuşdur. Nəticədə, 41% (n – 36) rifampisin preparatına həssaslıq, 12% hallarda (n – 10) rifampisinə davamlı (R) forma vərəm mikrobakteriyalar, 46% (n – 40) xəstədə isə vərəm mikrobakteriyaları aşkar edilməmişdir. Bir xəstə geniş dərmana davamlı forma vərəm xəstəsi kimi müalicə aldığı üçün protokola uyğun GeneXpert müayinəsi aparılmamışdır. Duru Bactec və bərk Levenşteyn-Yensen qidalı mühitdə vərəm mikrobakteriyalarının əkilməsi və spesifik dərmanlara davamlılığın təyin edilməsi vərəm müalicəsinin düzgün istiqamətdə aparılması məqsədilə önəmlidir. Müayinə nəticəsində izoniazidə davamlı (H) monorezistentlik 3,3% (n – 3), 2,2% (n – 2) hallarda izoniazidə və etambutola (HE) polidavamlılıq aşkar edilmişdir. R monorezistentlik 9,2% (n – 8), çox saylı vərəm preparatlarına davamlılıq (ÇDD) 4,6% (n – 4), geniş dərmana davamlılıq (GDD) isə 3,3% (n – 3) hallarda aşkar edilmişdir. Birinci sıra vərəməleyhinə preparatlarına həssas mikrobakteriyalar 40,2% (n – 35) xəstənin bəlğəmində aşkar edilmişdir.

COVID-19 pandemiyası dövründə COVID-19 infeksiyaya yoluxan insanlarda elektrokardioqrafiyada müxtəlif dəyişikliklər müşahidə edilmişdi. Belə ki, 53% (n – 46) hallarda EKQ göstəricilərində sinus ritmi saxlanılsa da 38% (n – 33) pasiyentlərdə taxikardiya, 9,4% (n – 8) müxtəlif formalı aritmiyalar, 5,7% (n – 5) hallarda müxtəlif dərəcəli atrioventrikulyar bloklar, 7% (n – 6) hallarda isə miokardın müxtəlif dərəcəli işemiyası müşahidə edilmişdir. Bu, COVID-19 infeksiyanın ürək-damar mənşəli patologiyalarının yaranmasına səbəb olan faktor kimi özünü göstərdi. Vacib instrumental-laborator metodlardan qan analizin təhlili də önəmlidir. Qanın ümumi analizlərinin təhlili onu göstərdi ki, xəstələrdə EÇS artması (54%, n – 47), hemoqlobinin düşməsi (56,3%, n – 49), leykositoz (31%, n – 27), limfopeniya (38%, n – 33) və trombositoz (25,3%, n – 22) müşahidə edilmişdir. Qanın biokimyəvi müayinəsi zamanı göstəricilərinin yüksəlməsi toksemiya əlamətlərini bildirir.

Yuxarıda qeyd olunan göstəricilərə və COVID-19 üzrə metodik təlimata uyğun olaraq xəstələrin anamnestik, klinik, laborator-instrumental müayinələrinin nəticələrinə əsasən (təngənəfəslik, tənəffüs sayı, sPO2, simptomların toplanması, Ps, fəsadlar və s.) xəstələrdə xəstəliyin ağırlıq dərəcəsi müəyyən edilmişdir. Belə ki, yüngül dərəcədə 11,5% (n – 10), orta-ağır/ağır 53% (n – 46), ağır 32,2% (n – 28 xəstə), kritik ağır 3,3% (n – 3) xəstə stasionarda müşahidəyə götürülüb və müalicə olmuşdur. Müalicə COVID-19 xəstələrin idarə olunması üzrə metodik təlimatlara və ağciyər vərəminin kimyəvi terapiyası üzrə klinik protokola uyğun aparılmışdır. Müalicə nəticəsində yalnız 1 xəstədə mənfi dinamika, 5 xəstə ilə stasionar müalicənin ilk 3 günündə vəfat etmişdir. Digər xəstələrdə klinik, rentgenoloji və laborator metodların nəticələrində müsbət dinamika qeyd edilmişdir.

Yekun. COVID-19 virus infeksiyası vərəm xəstəliyinin bütün mərhələlərində mənfi təsir göstərir. COVID-19/Vərəm xəstələrində ümumi şikayətləri üstünlük təşkil edildiyi səbəbindən xəstənin anamnestik, klinik, instrumental və laborator nəticələrinin düzgün qiymətləndirməsini apararaq xəstəliyin erkən mərhələlərdə aşkar etmək və düzgün müalicə taktikasını seçmək önəmlidir. COVID-19-un diaqnostikasında vərəmin molekulyar-genetik və bakterioloji təsdiqi üçün nəzərdə tutulan müayinə metodlarının əlavə edilməsi zəruridir. Əks halda, COVID-19 xəstələrində vərəm xəstəliyinin olması və ya əksinə vərəm xəstələrinin COVID-19 xəstəsi kimi qəbul olunması kimi halların baş verməsi mümkündür.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Şıxəliyev Y.Ş. Vərəmin aşkarlanma metodları. Vərəm xəstəlikləri dərslik 2016. səh 131-141
2. Şıxəliyev Y.Ş., Hüseynəliyeva V.N. Azərbaycanda vərəm əleyhinə tədbirlərin təkmillşdirilməsi yollarının müəyyənləşdirilməsi // Sağlamlıq (elmi-praktik jurnal) Bakı, 2017, №6. səh.143-151
3. Global Tuberculosis Report 2016. Geneva: World Health Organization; 2016. (WH0/HTM/TB/2016.13;http://apps.who.int/iris/bitstream/10665/250441/1/ 9789241565394-eng pdf).
4. Plan "Stop TB" for the 18 most priority countries of the WHO European region. 2007-2015 Copenhagen: World Health Organization: 2007 (http://www.euro.who.int/_data/assets/pdf_file/0006/68181/E91049R.pdfua-1, accessed on February 15, 2017.
5. Park SY, Lee JS, Son JS, et al. Post-exposure prophylaxis for Middle East respiratory syndrome in healthcare workers // J Hosp Infect. 2019 Jan;101(1):42-46.
6. Tuberculosis surveillance and monitoring in Europe 2016. Stockholm: European Centre for Disease Prevention and Control/WHO Regional Office for Europe; 2016 (http://ecdc.europa.eu/en/publications/Publications/ecdc-tuberculosis-surveillance monitoring-Europe-2016.pdf.)

7. Preliminary Report of the Favipiravir Observational Study in Japan. Favipiravir Observational Study Group// https://www.kansensho.or.jp/uploads/files/topics/2019ncov/covid19_ casereport_en_200529.
8. Yao TA. Systematic review of lopinavir therapy for SARS coronavirus and MERS coronavirus—A possible reference for coronavirus disease19 treatment option // J MedVirol 2020; DOI: 10.1002/jmv.25729.
9. Chen C, Huang J, Cheng Z, Zhang Y, Cheng Z et al. Favipiravir Versus Arbidol for Clinical Recovery Rate in Moderate and Severe Adult COVID-19 Patients: A Prospective, Multicenter, Open-Label, Randomized Controlled Clinical Trial/ 02.09.2021/DOI: 10.3389/fphar.2021.683296

РЕЗЮМЕ

ИЗУЧЕНИЕ ВЛИЯНИЯ ВИРУСНОЙ ИНФЕКЦИИ COVID-19 НА ЛЕЧЕНИЕ БОЛЬНЫХ ПЕРВИЧНО-ЧУВСТВИТЕЛЬНЫМ, МОНО- И ПОЛИРЕЗИСТЕНТНЫМ ТУБЕРКУЛЕЗОМ

[1]Османова Р.Р., [1]Гасымов И.А., [1]Мургузова Н.М., [2]Алиева Г.Р.
Научно-Исследовательский Институт Легочных Болезней, отделение фтизиатрии[1] и отделение пульмонологии[2], Баку, Азербайджан

Вирусная инфекция COVID-19 оказывает негативное влияние на все стадии заболевания туберкулезом. В связи с преобладанием общих жалоб у больных COVID-19/Туберкулезом важно выявить заболевание на ранних стадиях и выбрать соответствующую лечебную тактику путем проведения правильной оценки анамнестических, клинико-инструментальных и лабораторных результатов исследования. В диагностику COVID-19 необходимо добавить методы обследования, предназначенные для молекулярно-генетического и бактериологического подтверждения туберкулеза. В противном случае, возможна неправильная интерпретация инструментальных и лабораторных методов исследования, что в конечном счете приведет к неверной постановке диагноза.
Ключевые слова: COVID-19, туберкулезная болезнь, сопутствующие заболевания, лекарственная устойчивость, микобактерии туберкулеза (МБТ).

SUMMARY

STUDYING THE IMPACT OF COVID-19 VIRAL INFECTION ON THE TREATMENT OF PATIENTS WITH PRIMARY SENSITIVE, MONO- AND POLYRESISTANT TUBERCULOSIS

[1]Osmanova R.R., [1]Gasimov I.A., [1]Murguzova N.M., [2]Aliyeva G.R.
Scientific-Research Institute of Pulmonary Diseases, Department of Phthisiology[1] and Department of Pulmonology[2], Baku, Azerbaijan

Viral infection COVID-19 has a negative impact on all stages of tuberculosis. Due to the predominance of common complaints in patients with COVID-19/TB, it is important to identify the disease at an early stage and choose the right treatment tactics by correctly assessing the anamnestic, clinical, instrumental and laboratory results of the study. In the diagnosis of COVID-19, it is necessary to add examination methods designed for molecular genetic and bacteriological confirmation of tuberculosis. Otherwise, it is possible that the instrumental and laboratory methods of research may be misinterpreted, which ultimately leads to an incorrect diagnosis.
Keywords: COVID-19, tuberculosis disease, comorbidities, drug resistance, Mycobacterium tuberculosis (MBT).

Redaksiyaya daxil olub: 30.05.2022
Çapa tövsiyə olunub: 27.06.2022
Rəyçi: professor Y.Ş.Şıxəliyev

DİŞLƏR ƏTRAFINDA YUMŞAQ TOXUMA QÜSURLARININ BƏRPASINA MÜASİR YANAŞMALAR

Əhmədbəyli C.R.*

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrası, Bakı, Azərbaycan

Məqalədə dişlərin bukkal nahiyyəsində I tip lokalizə yumşaq toxuma qüsurlarının bərpasında yana istiqamətləndirilmiş dilim ilə regenerativ toxuma matriksinin istifadəsinin klinik və estetik nəticələrininin müqayisəvi qiymətləndirilməsi haqqında məlumat verilmişdir. Test qrupu olan 11 xəstədə yana istiqamətləndirilmiş dilim ilə birlikdə regenerativ toxuma matriksi istifadə olundu, nəzarət grupu olan digər 11 xəstədə isə sadəcə yana istiqamətləndirilmiş dilim tətbiq olundu. Yana istiqamətləndirilmiş dilimin lokalizə yumşaq toxuma qüsurlarının bərpası üçün daha az vaxt sərf edən, minimal invaziv və yüksək estetik müalicə üsulu olması, yana istiqamətləndirilmiş dilim ilə birqə regenerativ toxuma matriksinin istifadəsi isə yumşaq toxumanın qalınlığının artması, qüsurların tam bərpası, daha yüksək xəstə məmnuniyyəti və estetika ilə nəticələnən etibarlı müalicə yanaşması olduğu müəyyən edilmişdir.

Açar sözlər: yumşaq toxuma qüsurları, yana istiqamətləndirilmiş dilim, regenerativ toxuma matriksı

Müasir parodontologiyanın əsas məqsədlərindən biri insanlarda dişlər və implantlar ətrafında mövcud olan lokalizə və ya generalizə yumşaq toxuma qüsurlarının bərpa olunmasını və ətrafdaki toxumalar ilə estetik inteqrasiyasını tam təmin etməkdir [1]. Yana istiqamətləndirilmiş dilim üsulu ilk dəfə 1956-cı ildə Grupe & Warren [2] tərəfindən elmi əsaslandırılmışdır. Bu tarixdən etibarən, donor nahiyyədə yumşaq toxuma qüsuru riskini azaltmaq üçün, toxuma kənarının istiqamətləndiriləcək dilimə daxil edilməməsi və ya dilimin yarım qalınlıqda qaldırılması kimi müxtəlif modifikasiyalar təsvir edilmişdir [3, 4]. Dilimlər arasında yana istiqamətləndirilmiş dilim üsulu lokalizə qüsurların müalicəsində effektiv yanaşma kimi təqdim olunmuşdur [5-7]. Yuxarı çənə nahiyyəsindəki qüsurların müalicəsində yana istiqamətləndirilmiş dilimin istifadəsi keratinləşmiş toxuma hündürlüyünün artırılması və qüsurun daha mükəmməl bərpası ilə nəticələnən uğurlu yanaşma olaraq bildirilmişdir [8]. Müdaxilənin nəticələrinə təsir edən göstəricilər əsas alındıqda, yumşaq toxuma qalınlığının keratinləşmiş toxuma hündürlüyündən daha əhəmiyyətli təsir göstərməkdədir [9, 10]. Yana istiqamətləndirilmiş dilimin tətbiq olunacağı nahiyyələrdə toxumanın ilkin qalınlığının daha çox olması və ya birləşdirici toxuma ilə qalınlaşdırılaraq birqə istifadəsinin qüsurun tam bərpası ilə əlaqələndirilmişdir [5]. Yana istiqamətləndirilmiş dilimə əlavə olaraq birləşdirici toxuma əvəzedicisi kimi regenerativ toxuma matriksının yumşaq toxuma qüsurlarının bərpasında istifadəsinə dair tədqiqatların aparılmasına ehtiyac vardır.

Tədqiqatın məqsədi. Dişlərin bukkal nahiyyəsində I tip [11] lokalizə yumşaq toxuma qüsurlarının bərpasında yana istiqamətləndirilmiş dilim ilə regenerativ toxuma matriksının istifadəsinin klinik və estetik nəticələrininin müqayisəvi öyrənilməsi.

Tədqiqatın material və metodları. Randomizə edilmiş, paralel və nəzarət edilən klinik tədqiqata, yuxarı çənə dişlərinin, azı dişləri istisna olmaqla, bukkal nahiyyəsində ≥3 mm olan I tip lokalizə yumşaq toxuma qüsurları və onların yan donor nahiyyəsində keratinləşmiş toxuma hündürlüyü ≥6 mm olan 22 xəstə daxil edilmişdir. Çıxarma kriteriyaları yumşaq toxuma qüsurları nahiyyəsində pazabənzər mina və ya kök səthi qüsurları, kariyesi və ya restavrasiyaları olan, mina-sement sərhədin tam müəyyən edilə bilməyən dişləri, dişləm sırasında travması, ərp və gingival indeksləri ≥1, tütün məmulatları istifadə edən, hamilə və ya süd verən qadınlar, sistem xəstəliyi olan və ya parodont toxumalarına təsir edə biləcək dərmanlar istifadə edən insanlar olmuşdur. Helsinki təlimatları tədqiqat sırasında tam nəzərə alınmışdır. Tədqiqatın bütün aspektləri və alternativ müalicə üsulları bütün xəstələrə ətraflı izah olunmuşdur və onların razılığı alınmışdır. Müdaxilə öncəsi hazırlıqlar parodontoloji müayinənin aparılması, xəstələrdə fırçalama vərdişlərinin qiymətləndirilməsi, yumşaq diş fırçanın istifadəsi ilə düzqün ağız boşluğunun gigiyenası ilə bağlı ətraflı təlimatların verilməsi və professional ərp təmizliklərin aparılmasından ibarət idi. İlkin parodontoloji müalicədən 8 həftə sonra yenidən qiymətləndirmə sırasında daxil olma kriteriyalarına uyğun olan xəstələrdə əsas müalicə üçün vaxtı təyin olundu. Ərp və gingival indeksləri, zondlanma zamanı qanama, cib dərinliyi, parodontal birləşmə toxumasının səviyyəsi, qüsurun hündürlüyü, yumşaq toxuma qalınlığı, qüsurun eni və keratinləşmiş toxuma hündürlüyü kimi klinik göstəricilərin ölcülməsi PCP 15 UNC parodontoloji zond və spreader vasitəsilə müdaxilədən öncə və 12 ay sonra həyata keçirildi. Estetik nəticələr

*e-mail: ahmedbeyli@yahoo.com

qüsurun bərpasının estetik qiymətləndirilməsi meyarı [12], xəstələrin məmnuniyyəti isə üç ballıq qiymətləndirmə şkalasından istifadə etməklə [13] ilə müəyyən edilmişdir. Test qrupu olan 11 xəstədə yana istiqamətləndirilmiş dilim ilə birlikdə regenerativ toxuma matriksi (AlloDerm SELECT™) istifadə olundu, nəzarət grupu olan digər 11 xəstədə isə sadəcə yana istiqamətləndirilmiş dilim tətbiq olundu. Müdaxilədən sonraki müddətdə ərp nəzarəti üçün yumşaq fırçalama və xlorheksidin biqlukonat tərkibli antiseptik vasitə (Curasept ADS, Curaprox) 14 gün ərzində gündə 2 dəfə 30 saniyə ərzində istifadə olunmuşdur. Bütün təhlilləri yerinə yetirmək üçün NCSS 2007&PASS 2008 statistik paketdən istifadə edilmişdir. Qrupdaxili fərqlər paired sample t və Wilcoxon sign testləri, qruplararası fərqlər isə Student's t və Mann-Whitney U testləri ilə təhlil edilmişdir. Qüsurun tam bərpası, qüsurun bərpasının estetik qiymətləndirilməsi və xəstə məmnuniyyəti balları əsas nəticə dəyişəni kimi müəyyən edilmiş və digər parametrlərdəki dəyişikliklər (qüsurun hündürlüyünün azalması, keratinləşmiş toxuma hündürlüyünün və yumşaq toxuma qalınlığının artması) ikinci dərəcəli nəticə dəyişənləri kimi qəbul edilmişdir. Əhəmiyyətlilik dəyəri $p<0,05$ olmuşdur.

Tədqiqatın nəticələri və müzakirəsi. Sağalma sırasında xəstələrdə hərhansı bir mənfi hal müşahidə olunmamışdır və heç biri tədqiqatdan xaric edilməmişdir. Müalicədən öncə olan klinik göstəricilərin qruplar arasında müqaisəsində statistik əhəmiyyətli fərqlər yox idi ($p>0,05$). Qrupdaxili müqayisələr isə zondlanma zamanı qanama ($p>0,05$) istisna olmaqla, bütün parametrlər üzrə ($p<0,05$) ilkin göstəricilər ilə 12 ay sonraki müqayisədə statistik əhəmiyyətli fərqlər aşkar edildi (Cəd. 1).

Cədvəl 1

Müalicədən 12 ay sonra göstəricilərin qrupdaxili müqayisəsi

		Yana istiqamətləndirilmiş dilim + regenerativ toxuma matriksi	Yana istiqamətləndirilmiş dilim
Ərp indeksi	**Müalicədən əvvəl**	0,47±0,07	0,49±0,08
	12 ay sonra	0,41±0,07	0,42±0,07
	p	***0,001***	***0,001***
Gingival indeks	**Müalicədən əvvəl**	0,53±0,09	0,50±0,06
	12 ay sonra	0,48±0,07	0,45±0,08
	p	***0,001***	***0,019***
Zondlanma zamanı qanama (%)	**Müalicədən əvvəl**	8,63±0,92	8,54±1,29
	12 ay sonra	7,50±1,20	7,32±1,39
	p	***0,009***	***0,001***
Cib dərinliyi (mm)	**Müalicədən əvvəl**	1,04±0,41 (1)	1,09±0,66 (1)
	12 ay sonra	1,23±0,52 (1,5)	1,00±0,39 (1)
	p	***0,314***	***0,516***
Parodontal birləşmə toxumasının səviyyəsi (mm)	**Müalicədən əvvəl**	5,04±0,91 (5)	5,13±1,52 (4,5)
	12 ay sonra	1,45±0,72 (1,5)	2,00±1,38 (1,5)
	p	***0,003***	***0,003***
Qüsurun hündürlüyü (mm)	**Müalicədən əvvəl**	4,00±0,63 (4)	4,04±1,13 (3,5)
	12 ay sonra	0,23±0,41 (0)	1,00±1,24 (1)
	p	***0,003***	***0,003***
Qüsurun eni (mm)	**Müalicədən əvvəl**	3,45±0,52 (3,5)	3,41±0,54 (3,5)
	12 ay sonra	0,50±0,86 (0)	1,13±1,14 (1,5)
	p	***0,003***	***0,005***
Toxuma qalınlığı (mm)	**Müalicədən əvvəl**	0,70±0,11 (0,7)	0,72±0,09 (0,7)
	12 ay sonra	1,38±0,07 (1,4)	0,78±0,09 (0,8)
	p	***0,003***	***0,008***
Keratinləşmiş toxumanın hündürlüyü (mm)	**Müalicədən əvvəl**	0,77±0,34	0,73±0,41
	12 ay sonra	5,59±1,04	3,54±0,88
	p	***0,001***	***0,001***

Qeyd: Wilcoxon sign testi *$p\leq0,05$

Keratinləşmiş toxuma hündürlüyünün və yumşaq toxuma qalınlığının artımı, xəstə məmnuniyyəti və qüsurun bərpasının estetik qiymətləndirilməsinin 12-ci ay müşahidəsində test qrupunun lehinə əhəmiyyətli dərəcədə uğurlu olduğu aşkar edilmişdir (p<0,05). Hər bir qrupda mövcüd olan 11 yumşaq toxuma qüsurundan test qrupunda 8 xəstədə (72,73%) və kontrol qrupunda isə 5 xəstədə (45,45%) qüsurun tam bərpası müşahidə edilmişdir (p<0,05) (Cəd. 2). Qüsurların bərpası test qrupunda ortalama 94,80%, kontrol qrupunda isə ortalama 77,25% olmuşdur (p<0,05). Hazırkı tədqiqatın 12 aylıq nəticələri göstərdi ki, donor nahiyyəsində kifayət qədər keratinləşmiş toxuma olduqda, lokalizə yumşaq toxuma qüsurlarının bərpasında yana istiqamətləndirilmiş dilim etibarlı müdaxilədir. Digər tərəfdən, bu tədqiqat göstərdi ki, ilkin yumşaq toxumanın qalınlığı incədirsə toxuma qalınlığı, estetika və xəstə məmnuniyyəti baxımından regenerativ toxuma matriksinin əlavə olaraq istifadəsi daha uğurlu nəticələr verir. Bu araşdırmada müdaxilədən 12 ay sonra yumşaq toxuma qüsurlarının ortalama və tam bərpası test qrupunda müvafiq olaraq 94,80% və 72,73%, kontrol qrupunda isə müvafiq olaraq 77,25% və 45,45% olaraq qeydə alınmışdır. Yana istiqamətləndirilmiş dilim üsulunun və onun kombinə istifadəsinin klinik nəticələrini qiymətləndirən çox məhdud sayda tədqiqatların olmasına baxmayaraq, bu tədqiqatın nəticələri mövcüd ədəbiyyata uyğundur. Ədəbiyyatda yana istiqamətləndirilmiş dilimin lokalizə yumşaq toxuma qüsurlarının bərpasında istifadəsi ilə bağlı əvvəlki nəticələr qüsurun bərpası ortalama 61,90% [14] ilə 96% [5,8] arasında, qüsurun tam bərpası üzrə isə 15,0% [14] ilə 83,3% [8] arasında dəyişmişdir.

Cədvəl 2

Müalicədən 12 ay sonra göstəricilərin qruplararası fərq müqayisəsi

	Yana istiqamətləndirilmiş dilim + regenerativ toxuma matriksi	**Yana istiqamətləndirilmiş dilim**	***p***
Ərp indeksi	0,05±0,03 (0,05)	0,07±0,04 (0,07)	***0,338***$^{+}$
Gingival indeks	0,05±0,03 (0,04)	0,06±0,05 (0,04)	***0,617***$^{+}$
Zondlanma zamanı qanama (%)	1,13±0,71 (1)	1,23±0,60 (1)	***0,804***$^{+}$
Cib dərinliyi (mm)	-0,18±0,71 (-0,5)	0,09±0,54 (0)	***0,205***$^{+}$
Parodontal birləşmə toxumasının səviyyəsi (mm)	3,59±1,22 (3)	3,13±1,02 (3)	***0,569***$^{+}$
Qüsurun hündürlüyü (mm)	3,77±0,61 (3,5)	3,04±1,06 (3,5)	***0,122***$^{+}$
Qüsurun eni (mm)	2,95±0,93 (3)	2,27±1,40 (2)	***0,300***$^{+}$
Yumşaq toxumanın qalınlığı (mm)	0,69±0,09 (0,7)	0,06±0,05 (0,1)	**0.001**$^{+}$
Keratinləşmiş toxumanın hündürlüyü (mm)	4,82±0,98 (5)	2,82±0,64 (3)	***0,001***$^{+}$
Qüsurun bərpasının estetik qiymətləndirilməsi (bal)	9,00±1,73 (10)	7,36±2,11 6)	***0,042***$^{+}$
Xəstə məmnuniyyəti (bal)	18,63±1,91	15,91±3,50	***0,035***$^{++}$
Qüsurun ortalama bərpa dərəcəsi (%)	94,80±9,60 (100)	77,25±25,78 (75)	***0,065***$^{+}$
Qüsurun tam bərpası (%)	72.7	45.5	***0,387***$^{+++}$

Qeyd: +Mann Whitney U testi, ++ Student t testi, +++ Chi-kvadrat testi p≤0,05

Regenerativ toxuma matriksi xüsusilə palatinal nahiyyədə yumşaq toxuma məhdud olduğu və ya xəstənin ikinci cərrahi sahəyə üstünlük vermədiyi hallarda bağ toxuması qreftinə alternativ olaraq istifadə oluna bilər [15]. Regenerativ toxuma matriksi I tip kollagendən ibarət olaraq birləşdirici toxuma matriksi kimi xidmət edir və bu matriks insan toxumaların onun daxilinə nüfuz olması, struktur bütövlüyünü qorumağa və damarlar vasitəsilə yenidən qanlanmasına dəstək verən bir karkas kimidir. Xüsusilə insanlarda yumşaq toxuma incə olduqda, matriks dilim kənarının kök səthinə uyğunlaşmasını sabitləşdirməyə və onun ayrılmasının qarşısını almağa kömək edə bilər. Bu səbəblə dilimin periferik nahiyələrindən lazımi qan tədarükünə nail olmaq üçün matriksi tamamilə daha geniş və passiv mobilləşdirilmiş dilim ilə örtmək

vacibdir. Matriksin müəyyən üstünlüyü də ondan ibarətdir ki, klinik olaraq o vahid qalınlığı təmin edir; yaxşı uyğunlaşa bilir və asanlıqla kəsilir [16].

Qüsurun tam bərpası göstəricisini nəzərdən keçirərkən, yumşaq toxuma qalınlığı həkimlər tərəfindən xüsusi diqqət yetirilməsi tövsiyə olunur. Son ədəbiyyatda, yumşaq toxuma qüsurlarının tam bərpasına nail olmaq üçün ən az 1,44 mm marginal yumşaq toxuma qalınlığına ehtiyac olduğu bildirilmişdir [17]. Bu tədqiqatda yumşaq toxuma qalınlığının artımı test qrupunda ortalama 0,69±0,09 mm, kontrol qrupunda isə ortalama 0,06±0,05 mm olmuşdur və müalicə qruplar arasında test qrupunun lehinə əhəmiyyətli fərq ilə nəticələnmişdir ($p<0,05$). Bir çox tədqiqatın nəticələri üsuldan (taca istiqamətləndirilmiş dilim, yana istiqamətləndirilmiş dilim və ya tunelləmə) asılı olmayaraq yumşaq toxuma qalınlığı az olduqda xəstələrdə qüsurların tam bərpası üçün toxumanın qalınlaşdırılmasının onlara faydalı olacağını ortaya qoyur [17-19]. Qüsurun bərpasının estetik qiymətləndirilməsi göstəricisi test və kontrol qruplarında müvafiq olaraq ortalama 9,00±1,73 və 7,36±2,11 bal olmuşdur və qruplar arasında test qrupunun lehinə əhəmiyyətli fərq ilə nəticələnmişdir ($p<0,05$). Maksimal dərəcəsi 10 bal olan estetik göstəricisi test qrupundakı bütün xəstələrdə, halbuki kontrol qrupunda qüsurun tam bərpası əldə olunan 5 xəstədən yalnız 3-ün də müşahidə olunmuşdur. Nəticələr test qrupunda daha üstün idi, çünki qüsurun tam bərpası əsasən yumşaq toxuma qalınlığı daha yüksək olan xəstələrdə əldə edilmişdir. Bu tədqiqatda xəstə məmnuniyyəti test və kontrol qruplarında müvafiq olaraq 18,63±1,91 və 15,91±3,50 olmuşdur. Ümumi xəstə məmnuniyyəti test qrupunda əhəmiyyətli dərəcədə yüksək olmuşdur ($p<0,05$). Digər tərəfdən, xəstələr yana istiqamətləndirilmiş dilim üsulunu ən sərfəli üsul kimi qiymətləndirdilər. Test qrupunda isə 11 xəstədən 8-də qüsurların tam bərpa olunduğu üçün daha az həssaslıq, daha üstün yumşaq toxuma forması və konturu müşahidə edilmişdir.

Belə ki, yana istiqamətləndirilmiş dilimin lokalizə yumşaq toxuma qüsurlarının bərpası üçün daha az vaxt sərf edən, minimal invaziv və yüksək estetik müalicə üsuldur. Yana istiqamətləndirilmiş dilim ilə birqə regenerativ toxuma matriksinin istifadəsi yumşaq toxumanın qalınlığının artması, qüsurların tam bərpası, daha yüksək xəstə məmnuniyyəti və estetika ilə nəticələnən etibarlı müalicə yanaşmadır.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Cairo F. Periodontal plastic surgery of gingival recessions at single and multiple teeth // Periodontology 2000, 2017, 75:296-316. doi: 10.1111/prd.12186
2. Grupe HE & Warren RF. Repair of gingival defects by sliding flap operation // J Periodontology, 1956, 27:92–95. doi: 10.1902/jop.1956.27.2.92
3. Staffileno H. Management of gingival recession and root exposure problems associated with periodontal disease // Dent Clin North Am, 1964, 8:111–120. doi: 10.1016/S0011-8532(22)02003-1
4. Grupe HE. Modified Technique for the Sliding Flap Operation // J Periodontology 1966, 37:491–495. doi: 10.1902/jop.1966.37.6.491
5. Zucchelli G, Cesari C, Amore C, Montebugnoli L, De Sanctis M. Laterally moved, coronally advanced flap: a modified surgical approach for isolated recession-type defects // J Periodontology 2004, 75:1734–1741. doi: 10.1902/jop.2004.75.12.1734.
6. Chambrone LA & Chambrone L. Treatment of Miller Class I and II localized recession defects using laterally positioned flaps: a 24-month study. Am J Dent 2009, 22:339-344.
7. Lee CT, Chang PC, Touchan N, Royzman D. Root coverage with a modified laterally positioned flap combined with a subepithelial connective tissue graft in advanced recession // J Periodontal Implant Sci 2014, 44:300–306. doi: 10.5051/jpis.2014.44.6.300
8. Santana RB, Furtado MB, Mattos CM, De Mello Fonseca E, Dibart S. Clinical evaluation of single-stage advanced versus rotated flaps in the treatment of gingival recessions // J Periodontology 2010, 81:485–492. doi: 10.1902/jop.2010.090237
9. Woodyard JG, Greenwell H, Hill M, Drisko C, Iasella JM, Scheetz J. The clinical effect of acellular dermal matrix on gingival thickness and root coverage compared to coronally positioned flap alone // J Periodontology 2004, 75:44–56. doi: 10.1902/jop.2004.75.1.44.
10. Hwang D & Wang HL. Flap thickness as a predictor of root coverage: a systematic review // J Periodontology 2006, 77:1625-1634. doi: 10.1902/jop.2006.060107.
11. Cairo F., Nieri M., Cincinelli S., Mervelt J., Pagliaro U. The interproximal clinical attachment level to classify gingival recessions and predict root coverage outcomes: an explorative and reliability study // J. Clin. Periodontology 2011,38:661–666. doi: 10.1111/j.1600-051X.2011.01732.x.
12. Cairo F, Rotundo R, Miller PD, Pini-Prato GP. Root coverage esthetic score: a system to evaluate the esthetic outcome of the treatment of gingival recession through evaluation of clinical cases // J Periodontology 2009, 80:705–710. doi: 10.1902/jop.2009.080565.
13. Mahajan A, Dixit J, Verma UP. A patient-centered clinical evaluation of acellular dermal matrix graft in the treatment of gingival recession defects // J Periodontology 2007, 78:2348-2355. doi: 10.1902/jop.2007.070074.
14. Ricci G, Silvestri M, Rasperini G, Cattaneo V. Root coverage: a clinical/statistical comparison between subpedicle connective tissue graft and laterally positioned full thickness flaps // J Esthet Dent 1996, 8:66–73. doi: 10.1111/j.1708-8240.1996.tb00887.x.
15. Chambrone L, Sukekava F, Araújo MG, Pustiglioni FE,

Chambrone LE, Lima LA. Root-coverage procedures for the treatment of localized recession-type defects: a cochrane systematic review // J Periodontology 2010, 81:452–478. doi: 10.1002/14651858.CD007161.pub3
16. Santos A, Goumenos G, Pascual A. Management of gingival recession by the use of an acellular dermal graft material: a 12-case series // J Periodontology 2005, 76:1982-1990 doi: 10.1902/jop.2005.76.11.1982.
17. Rebele SF, Zuhr O, Schneider D, Jung RE, Hürzeler MB. Tunnel technique with connective tissue graft versus coronally advanced flap with enamel matrix derivative for root coverage: a RCT using 3D digital measuring methods. Part II. Volumetric studies on healing dynamics and gingival dimensions // J Clin Periodontology 2014, 41:593-603.
18. Ozenci I, Ipci SD, Cakar G, Yilmaz S. Tunnel technique versus coronally advanced flap with acellular dermal matrix graft in the treatment of multiple gingival recessions // J Clin Periodontology 2015, 42:1135-1142. doi: 10.1111/jcpe.12178. Epub 2013 Nov 10.
19. Kuka S, Ipci SD, Cakar G, Yılmaz S. Clinical evaluation of coronally advanced flap with or without platelet-rich fibrin for the treatment of multiple gingival recessions // Clin Oral Investigation 2018 Apr;22(3):1551-1558. doi: 10.1007/s00784-017-2225-9.

РЕЗЮМЕ

СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ВОССТАНОВЛЕНИЮ ДЕФЕКТОВ МЯГКИХ ТКАНЕЙ ВОКРУГ ЗУБОВ

Ахмедбейли Дж.Р.
Азербайджанский Государственный Институт Усовершенствования врачей имени А.Алиева, кафедра стоматологии и челюстно-лицевой хирургии, Баку, Азербайджан

В статье представлена информация о сравнительной оценке клинико-эстетических результатов применения регенеративного тканевого матрикса с латерально смещенным лоскутом при лечении локализованных дефектов мягких тканей 1-го типа. У 11 пациентов основной группы регенеративная тканевая матрица использовалась вместе с латерально смещенным лоскутом, тогда как у 11 пациентов контрольной группы использовался только латерально смещенный лоскут. Латерально смещенный лоскут является менее трудоемким, малоинвазивным и высокоэстетичным методом лечения локализованных дефектов мягких тканей; использование регенеративной тканевой матрицы в сочетании с латерально смещенным лоскутом является надежным подходом к лечению, который связан с увеличением толщины мягких тканей, полной реконструкцией дефектов и более высокой удовлетворенностью пациентов и эстетикой.
Ключевые слова: дефекты мягких тканей, латерально смещенный лоскут, регенеративная тканевая матрица.

SUMMARY

MODERN APPROACHES FOR THE TREATMENT OF SOFT TISSUE DEFICIENCES AROUND TEETH

Ahmedbeyli C.R.
Azerbaijan State Advanced Training Institute for Doctors named after A.Aliyev, Department of Stomatology and Maxillofacial Surgery, Baku, Azerbaijan

The article provides information on the comparative evaluation of the clinical and aesthetic results of the use of the regenerative tissue matrix with laterally repositioned flap in the treatment of type 1 localized buccal soft tissue deficiencies. In 11 patients of the test group, the regenerative tissue matrix was used together with the laterally repositioned flap, whereas in 11 patients of the control group, laterally repositioned flap only was applied. The laterally repositioned flap is a less time-consuming, minimally invasive and highly aesthetic method for the treatment of localized buccal soft tissue deficiencies; the use of regenerative tissue matrix combined with the laterally repositioned flap has been found to be a reliable treatment approach that is associated with increased soft tissue thickness, complete reconstruction of the defects and higher patient satisfaction and aesthetics.
Açar sözlər: soft tissue deficiences, laterally repositioned flap, regenerative tissue matrix.

Redaksiyaya daxil olub: 11.07.2022
Çapa tövsiyə olunub: 01.08.2022
Rəyçi: dosent F.Y.Məmmədov

"ZOLİDROX" PREPARATINDA ZOLEDRON TURŞUSUNUN YEMX İLƏ MİQDARI TƏYİNİ ÜSULUNUN VALİDASİYA QİYMƏTLƏNDİRİLMƏSİ

[1]Süleymanov T.A., [1]İskəndərov V.H., [1]Balayeva E.Z.*, [2]Rəhimova R.F.

[1]Azərbaycan Tibb Universiteti, əczaçılıq kimyası kafedrası, Bakı Azərbaycan;

[2]Azərbaycan Respublikası, Səhiyyə Nazirliyi, Analitik Ekspertiza Mərkəzi, Bakı, Azərbaycan

"Zolidrox" preparatında zoledron turşusunun YEMX-UB ilə miqdarı təyini üsulunun validasiya parametrlərinin qiymətləndirilməsi aparılmış, düzgünlük, dəqiqlik və xəttilik kimi göstəricilər müəyyən edilmişdir. Tədqiq edilən üsul yüksək effektivliyi, dayanıqlığı və spesifikliyi ilə xarakterizə olunur. Üsulun düzgünlük göstəricisi sərhədləri 100,67%-dən 101,55%-ə qədər; dəqiqlik göstəricisinin standart kənaraçıxması 0,156%, etibarlılıq intervalı ±0,164; xəttilik göstəricisi 0,64-0,96 mq/ml qatılıq intervalında R2=0,996, xətti reqresiya funksiyası y=5393,08x+243,14 olmuşdur.

Açar sözlər: "Zolidrox" preparatı, zoledron turşusu, yüksək effektli maye xromatoqrafiya, validasiya.

Giriş. "Zolidrox" preparatı Liva Pharma (Türkiyə) müəssisəsi tərəfindən istehsal olunur və Azərbaycan Respublikasında dövlət qeydiyyat nömrəsi: 20-00364-dir. 5 ml konsentratın tərkibində 4 mq zoledron turşusu (susuz) vardır (4,264 mq zoledron turşusu monohidrata ekvivalent), *köməkçi maddə* kimi mannitol, susuz natrium sitrat, inyeksiya üçün su, NaOH/HCl (pH-ı tənzimləmək üçün) vardır. Preparat sümük metastazlarının müalicəsində və qanda kalsiumun səviyyəsi normal səviyyədən daha yüksək olan xəstələrdə kalsiumun səviyyəsini aşağı salmaq üçün istifadə olunur.

Yüksək effektli maye xromatoqrafiya elektrosprey ionlaşma kütlə spektrometriyası (HPLC-ESI-MS) ilə zoledron turşusunun aşağı konsentrasiyada miqdarının hesablanması üçün üsul işlənilib hazırlanmış və validasiya parametrlərinin qiymətləndirilməsi aparılmışdır [1].

Zoledron turşusu kimi bifosfonatlar osteoporozun müalicəsində istifadə olunur. Lakin onların intervertebral disklərdə yığılması və fizioloji rolu indiyədək araşdırılmamışdır. Bu məqsədlə SPE-maye xromatoqrafiyası-tandem kütlə spektrometriya/kütlə spektrometriya (SPE-LC-MS/MS) üsulu işlənilib hazırlanmış və validasiya edilmişdir [2].

Zoledron turşusunun həm təmiz, həm də dozalanmış dərman formalarında miqdarı təyini üçün sürətli və təkrarlanan əks fazalı yüksək effektli maye xromatoqrafiya üsulu işlənib hazırlanmış və validasiya edilmişdir [3].

İnsan sümüyündən zoledron turşusunun çıxarılması və miqdarı təyini üçün bir üsul işlənilib hazırlanmış və validasiya edilmişdir. Bu üsul, zoledron turşusunun müalicəsi ilə bağlı çənənin bifosfonatla əlaqəli osteonekrozundan təsirlənmiş xəstələrin çənə sümüyünün sekvestrlərindən zoledron turşusunun miqdarını müəyyən etməyə imkan verir [4].

Parenteral və steril dozalanmış dərman formalarında qatışıqların və deqradantların iştirakı ilə Zoledron turşusunun təyini üçün həssas və dəqiq ion cütlü əks fazalı yüksək effektli maye xromatoqrafya üsulu işlənilib hazırlanmış və validasiya edilmişdir [5].

Zoledron turşusunun inyeksiya dərtman formalarında miqdarı təyini üçün əks fazalı yüksək effektli maye xromatoqrafiyanın stabilliyini stimulə edən üsul işlənilib hazırlanmış və validasiya edilmişdir [6].

Nanokağız əsaslı analitik cihaz (NAD) zoledron turşusu üçün kolorimetrik metal kompleksləşdirici göstərici-yer dəyişdirmə analizi (M-IDA) ilə aparılmışdır. Bakterial sellüloza nanokağız, hidrofobik divarların lazer çapı vasitəsilə hidrofilik sınaq zonalarının naxışlandığı bir kimyosensor əldə etmək üçün kurkumin ilə aşqarlanmışdır. Bu üsul sidikdə, plazmada, tüpürcəkdə və əczaçılıq nümunələrində zoledron turşusu təyini üçün istifadə edilmişdir [7].

İşin məqsədi "Zolidrox" preparatında zoledron turşusunun yüksək effektli maye xromatoqrafiya ilə miqdarı təyini üsulunun validasiya göstəricilərinin qiymətləndirilməsidir.

Material və metodlar. Reagent və məhlullar.

- Zoledron turşusunun standartı, 99,9% təmizliyə malik (*KRKA/Sloveniya*, seriya nömrəsi: *UG1456*);
- Qatı ortofosfor turşusu (85%), HPLC Grade (*Merck/Almaniya*, seriya nömrəsi: *I674930 308*);
- Dionizə suyu;

Avadanlıq. Eksperimental tədqiqatlar UB-detektorlu HPLC-Agilent 1100 (ABŞ) xromatoqrafında aparılmışdır. Hərəkətsiz faza "Novapak C18" (4.6 x

*e-mail: emilya@list.ru

150 mm) kolonkası, hissəciklərin ölçüsü 5 mkm. Hərəkətli faza: metanol-su (60:40). Kolonkanın temperaturu 25°C, həlledicinin verilmə sürəti 1,2 ml/dəq., inyeksiya həcmi 10 mkl və dalğa uzunluğu 215 nm-dir. İstifadə edilən həlledicilər yüksək kimyəvi təmizliyə malikdirlər. Analizin aparılma müddəti 10 dəqiqədir.

Məhlulların hazırlanması. *Hərəkətli fazanın hazırlanması.* 1 litr suya pH-ı 3.0 olana kimi 85%-li qatı orta fosfat turşusu əlavə edilir və ultrasəsli su hamamı ilə deqazasiya olunur.

Həlledicinin hazırlanması – 1 litr suya pH-ı 3,0 olana kimi 85%-li qatı orta fosfat turşusu əlavə edilir və ultrasəsli su hamamı ilə deqazasiya olunur.

Zolidron turşusunun standart nümunə məhlulunu hazırlamaq üçün 40 mq (dəqiq kütlə) zoledron turşusunun standart nümunəsi 50 ml-lik ölçülü kolbaya yerləşdirilib, üzərinə 25 ml həlledici əlavə edilib çalxalanıb, sonra həmin həlledici ilə ölçüyə çatdırılır və sonra 15 dəq müddətində ultrasəs hamamında saxlanılmışdır.

Nümunə məhlulunu hazırlamaq üçün tərkibində 4 mq zoledron turşusu olan inyeksiya məhlulundan istifadə olunmuşdur.

Nəticələr və onların müzakirəsi. *Hərəkətli fazanın hazırlanması.* 1 litr suya pH-ı 3,0 olana kimi 85%-li qatı orta fosfat turşusu əlavə edilir və ultrasəsli su hamamı ilə deqazasiya olunur.

Həlledicinin hazırlanması – 1 litr suya pH-ı 3,0 olana kimi 85%-li qatı orta fosfat turşusu əlavə edilir və ultrasəsli su hamamı ilə deqazasiya olunur.

Zolidron turşusunun standart nümunə məhlulunu hazırlamaq üçün 40 mq (dəqiq kütlə) zoledron turşusunun standart nümunəsi 50 ml-lik ölçülü kolbaya yerləşdirilib, üzərinə 25 ml həlledici əlavə edilib çalxalanıb, sonra həmin həlledici ilə ölçüyə çatdırılır və sonra 15 dəq müddətində ultrasəs hamamında saxlanılmışdır. Nəticədə 0,8 mq/ml qatılıqlı məhlul alınmışdır. Alınmış məhlul məsamələrinin ölçüsü 0,45 mkm olan ftoroplast filtrdən süzülür.

Nümunə məhlulunu hazırlamaq üçün tərkibində 4 mq zoledron turşusu olan inyeksiya məhlulundan istifadə olunmuşdur. İnyeksiya məhlulu 4 mq/5 ml və bu inyeksiya məhlulununda qatılığı 0,8 mq/ml-dir.

Zolidron turşusunun standart nümunə məhlulu və "Zolidrox" preparatının məhlulunun hər birinin YEMX-da 6 dəfə xromatoqramları çəkilir (şək. 1).



(I) **(II)**

Şək. 1. Zoledron turşusunun standart nümunəsinin (I) və "Zolidrox" preparatının (II) YEMX-UB ilə çəkilən xromatoqramları.

Preparatda zoledron turşusunun miqdarı aşağıda göstərilən formula əsasən hesablanır:

$$X = \frac{S \cdot M_S \cdot V1}{S_0 \cdot M_n \cdot V2} \cdot 100\%$$

burada:

S - nümunənin zirvə sahəsinin orta göstəricisi, nisbi vahidlə;

So - standartın zirvə sahəsinin orta göstəricisi, nisbi vahidlə;

Ms – standartın çəkisi, mq-la

Mn – nümunənin çəkisi, mq-la

V1 – həcm, ml-lə

V2 – həcm, ml-lə

Zoledron turşusunun standart nümunə və tədqiq

edilən nümunə məhlullarının hər birinin YEMX-da 6 dəfə xromatoqramları çəkilir.

"Zolidrox" preparatında zoledron turşusunun YEMX-UB ilə miqdarı təyini üsulunun validasiya qiymətləndirilməsi düzgünlük, dəqiqlik və xəttilik kimi validasiya göstəriciləri təyin edilmişdir. Validasiya parametrlərinin qiymətləndirilməsi USP, FDA, ICH və s. kimi beynəlxalq normativ sənədlərin tələblərinə müvafiq olaraq müəyyənləşdirilmişdir [8-10].

Düzgünlüyün qiymətləndirilməsi. Miqdarı təyini üsulunun düzgünlük göstəricisinin qiymətləndirilməsi zamanı məlum təmizlik dərəcəsinə malik zoledron turşusundan istifadə edilir. 40 mq standart zoledron turşusu tərkibli model qarışıq 50 ml-lik kolbaya əlavə edilir, sonra kolbaya dəqiq ölçülmüş 20 ml mobil faza əlavə edilib və həll olana qədər çalxalanır, sonra isə həlledicidən istifadə edərək ölçüyə çatdırılır və nəticədə 0,8 mq/ml qatılıqlı məhlul alınır. Analoji qaydada 32 mq, 48 mq zoledron turşusu tərkibli model qarışıqdan da 0,64 mq/ml, 0,88 mq/ml qatılıqlı məhlullar hazırlanır, yüksək effektli maye xromatoqrafda hər birinin 3 dəfə xromatoqramları çəkilir və müəyyən olunmuş göstəricilər hesablanır. Alınan nəticələr cəd. 1-də verilmişdir.

Cədvəl 1

"Zolidrox" preparatında zoledron turşusunun YEMX ilə miqdarı təyini üsulun düzgünlüyü

Hədəf miqdar, mq	Vaxt, dəq	Zirvə sahəsi, nisbi vahid	Aşkar miqdar, mq	Əhatə dairəsi, %
32,0	1,315	3164,26	32,58	101,81
	1,315	3179,26	32,34	101,06
	1,315	3180,11	32,41	101,28
40,1	1,313	4033,45	40,85	101,87
	1,313	4035,77	40,68	101,44
	1,316	4050,84	40,56	101,14
48,1	1,315	4920,23	48,42	100,66
	1,315	4917,21	48,38	100,59
	1,317	4932,08	48,16	100,13
Standart kənaraçıxma (%)				0,58
Variasiya əmsalı (%)				0,57
Orta qiymət (%)				101,11
Etibarlılıq intervalının aşağı həddi (%,p=95%)				100,67
Etibarlılıq intervalının yuxarı həddi (%,p=95%)				101,55
Ən kiçik qiymət %				100,13
Ən böyük qiymət %				101,87



(I)



(II)



III

Şək. 2. "Zolidrox" preparatında zoledron turşusunun YEMX ilə miqdarı təyini üsulunun düzgünlüyünün 32 mq (I), 40 mq (II), 48 mq (III) qatılıqda olan konsentrasiyaların xromatoqramları.

Cəd. 1-dən və şək. 2-dən göründüyü kimi "Zolidrox" preparatında zolidron turşusunun YEMX ilə miqdarı təyini üsulunun düzgünlüyü və ona aid statistik hesablamaların göstəriciləri müvafiq tələblərə uyğundur.

Dəqiqliyin təyini. "Zolidrox" preparatında zoledron turşusunun YEMX ilə miqdarı təyini üsulunun dəqiqlik göstəricisi eyni homogen seriyanın 6 nümunəsinin analiz nəticələri arasındakı yaxınlıq dərəcəsinin müəyyən edilməsi əsasında təyin edilmişdir. Üsula müvafiq olaraq tədqiq edilən nümunə və standart zoledron turşusunun məhlulları hazırlanır, sonra YEMX-da xromatoqramları çəkilir və müəyyən olunmuş göstəricilər hesablanır. Alınan nəticələr cəd. 2 və 3-də verilmişdir.

Cədvəl 2

"Zolidrox" preparatında zoledron turşusunun YEMX ilə miqdarı təyini üsulun analizlərarası dəqiqliyi - I gün

Hədəf miqdar, mq	Vaxt, dəq	Zirvə sahəsi	aşkar miqdar, mq	aşkar miqdar %
4	1,225	4117,98	4,068	101,73
4	1,224	4105,61	4,064	101,61
4	1,225	4116,52	4,072	101,79
4	1,225	4118,82	4,076	101,88
4	1,224	4113,53	4,072	101,77
4	1,225	4106,98	4,108	101,44
Ən kiçik qiymət %				101,44
Ən böyük qiymət %				101,88
Orta qiymət %				101,70
Standart kənaraçıxma %				0,156
Variasiya əmsalı %				0,153
Etibarlılıq intervalı (p=95%)				0,164

Cəd. 2, 3 və şək. 3-dən göründüyü kimi "Zolidrox" preparatında və zoledron turşusunun standart nümunə məhlulunda üsulun dəqiqliyinin təyini üzrə alınmış nəticələr mövcud tələblərə uyğundur.

Xəttiliyin qiymətləndirilməsi. Zoledron turşusunun standartından 40 mq götürüb, 25 ml-lik kolbaya əlavə edilir, sonra kolbaya dəqiq ölçülmüş 8 ml mobil faza əlavə edilir və həll olana kimi çalxalanır, sonra ölçüyə çatana qədər mobil faza əlavə olunur. Alınan standart məhluldan 8 ml götürüb 10 ml-lik ölçülü kolbaya əlavə edilir, sonra hərəkətli faza ilə ölçüyə çatdırılır və bu zaman 0,64 mq/ml qatılıqda məhlul yaranır. Analojı qaydada 0,72 mq/ml, 0,8 mq/ml, 0,88 mq/ml, 0,96 mq/ml qatılıqlı məhlullar hazırlanır və YEMX-da xromatoqramları çəkilir və müəyyən olunmuş göstəricilər hesablanır. Alınan nəticələr şək. 4-də və cəd. 4-də verilmişdir.

Cədvəl 3

“Zolidrox” preparatında zoledron turşusunun YEMX ilə miqdarı təyini üsulun analizlərarası dəqiqliyi – II gün

Hədəf miqdar, mq	Vaxt, dəq	Zirvə sahəsi	Aşkar miqdar, mq	Aşkar miqdar, %
4	1,227	4139,67	4,056	101,62
4	1,227	4133,52	4,067	101,42
4	1,226	4121,85	4,041	101,26
4	1,226	4117,67	4,052	101,06
4	1,227	4115,70	4,057	100,91
4	1,230	4121,82	4,062	101,03
Ən kiçik qiymət %				100,91
Ən böyük qiymət %				101,62
Orta qiymət %				101,22
Standart kənaraçıxma %				0,268
Variasiya əmsalı %				0,265
Etibarlılıq intervalı (p=95%)				0,281



(I) **(II)**

Şək. 3. Zoledron turşusunun standart nümunəsinin (I) və “Zolidrox” preparatının (II) xromatoqramları.



Şək. 4. “Zolidrox” preparatında üsulun xəttiliyini əks etdirən qrafik.

Cədvəl 4

"Zolidrox" preparatında zoledron turşusunun YEMX ilə miqdarı təyini üsulun xəttiliyi

N	Qatılıq (mq/ml)	Zirvə
1	0,64	3174,54
2	0,72	3705,26
3	0,80	4031,17
4	0,88	4522,46
5	0,96	4923,17

Korrelyasiya əmsalı	0,998
Bucaq əmsalı	5393,075
Kəsik əmsalı	-243,14
Determinasiya əmsalı	0,996
Xətti funksiya	y=5393,08x+243,14

Şək. 4 və cəd. 4-dən göründüyü kimi, tədqiq edilən nümunənin qatılığı ilə zirvə sahəsinin orta göstəricisi arasında xəttilik müşahidə edilir. Korrelyasiya analizinin nəticələri göstəricilər arasında reqresiya analizinin aparılmasına şərait yaradır. Reqresiya analizi qatılıqla zirvə sahəsinin göstəriciləri arasında xətti reqresiya tənliyinin qurulması ilə nəticələnmişdir. Determinasiya əmsalının kifayət qədər yüksək olması xətti asılılığın praktik tədbiqlərdə istifadəsinə şərait yaradır.

Yekun. "Zolidrox" preparatında zoledron turşusunun YEMX-UB ilə miqdarı təyini üsulunun validasiya parametrlərinin qiymətləndirilməsi aparılmış, düzgünlük, dəqiqlik və xəttilik kimi göstəricilər müəyyən edilmişdir. Tədqiq edilən üsul yüksək effektivliyi, dayanıqlığı və spesifikliyi ilə xarakterizə olunur. Üsulun düzgünlük göstəricisi sərhədləri 100,67%-dən 101,55%-ə qədər; dəqiqlik göstəricisinin standart kənaraçıxması 0,156%, etibarlılıq intervalı ±0,164; xəttilik göstəricisi 0,64-0,96 mq/ml qatılıq intervalında R2=0,996, xətti reqresiya funksiyası y=5393,08x+243,14 olmuşdur.

Beləliklə, üsul qənaətbəxş düzgünlük, dəqiqlik, xəttilik və sistem uyğunluğu kimi göstəricilərə malikdir və "Zolidrox" preparatının istehsalı, eləcə də satışı mərhələlərində keyfiyyətinə nəzarəti həyata keçirməyə imkan verir.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Petrovici A.R., Silion M., Simionescu N., Kallala R. et al. Quantification of low amounts of zoledronic acid by HPLC-ESI-MS analysis: method development and validation // Int. J. Mol. Sci., -2022. 23, - p. 5944-57.
2. Christophoridis C., Kouroumalis A., Kletsas D. Accumulation of zoledronic acid in rabbit intervertebral discs // Journal of Chromatography B, -2022. 1197, - p. 1-10.
3. Mastanamma S.K., Suresh G., Priya D.S. et al. A validated RP-HPLC method for the estimation of zoledronic acid // IJPSR, -2012. 3 (3), -p. 826-829.
4. Faro A.F., Giorgetti R., Busardo F.P. et al. Development and validation of a method using ultra performance liquid chromatography coupled to tandem mass spectrometry for determination of zoledronic acid concentration in human bone // Journal of Pharmaceutical and Biomedical Analysis, -2019. 162, -p. 286-290.
5. Nandan S.R., Reddy R., Rao S., Ravindranath L.K. Regulatory requirement – validated, specific, and stability indicating analytical method for zoledronic acid and its related impurities by Ion Pair Reversed Phase Liquid Chromatography (IP-RPLC) // Journal of Liquid Chromatography & Related Technologies, -2009. 32 (16), -p. 2307-2321.
6. Karthikeyan R., Koushik O.S., Babu P.S. Stability indicating method development and validation of zoledronic acid in injectables by RP–HPLC // Journal of International Research in Medical and Pharmaceutical Sciences, -2016. 7 (4), -p. 159-174.
7. Faham S., Ghavami R., Golmohammadi H., Khayatian G. Spectrophotometric and visual determination of zoledronic acid by using a bacterial cell-derived nanopaper doped with curcumin // Microchimica Acta, -2019. (11), -p. 719-728.
8. Süleymanov T.A., Balayeva E.Z., Jouyban A. et al. Liquid Chromatographic Determination of Thymol in a Pharmaceutical Formulation // Latın American Journal of Pharmacy, - 2020. 39, - p. 1509-1514.
9. Süleymanov T.A., Balayeva E.Z. "Kalinol plus" şərbətində timolun YEMX ilə miqdarı təyinat üsulunun validasiyasına aid bəzi göstəricilər // Azərbaycan Əczaçılıq və

Farmakoterapiya jurnalı, - 2015. 2, - səh. 11-16.
10. Sharma, A. Validation of analytical procedures: a comparison of ICH, pharmacopoeia USP and FDA // International Research Journal of Pharmacy, - 2012. 3 (6), - p.39-42.

РЕЗЮМЕ

ВАЛИДАЦИОННАЯ ОЦЕНКА МЕТОДИКИ КОЛИЧЕСТВЕННОГО ОПРЕДЕЛЕНИЯ ЗАЛЕДРОНОВОЙ КИСЛОТЫ В ПРЕПАРАТЕ «ЗОЛИДРОКС»

[1]Т.А.Сулейманов, [1]В.Г.Искандаров, [1]Э.З.Балаева, [2]Р.Ф.Рахимова
[1]Азербайджанский Медицинский Университет, кафедра фармацевтической химии, Баку, Азербайджан;
[2]Министерство Здравоохранения Азербайджанской Республики, Аналитический Экспертный Центр, Баку, Азербайджан

Были оценены параметры валидации метода определения количества золедроновой кислоты в Золидроксе с помощью ВЭЖХ-УФ, а также определены такие показатели, как правильность, прецизионность и линейность. Изучаемый метод характеризуется высокой эффективностью, долговечностью и специфичностью. Пределы точности метода колеблются от 100,67% до 101,55%; стандартное отклонение показателя точности 0,156%, интервал достоверности ±0,164; Индекс линейности составил R2=0,996 в диапазоне концентраций 0,64-0,96 мг/мл, функция линейной регрессии y=5393,08x+243,14. Таким образом, метод имеет такие показатели, как удовлетворительная точность, прецизионность, линейность и системная совместимость, и позволяет контролировать качество Золидрокса в процессе производства и реализации.
Ключевые слова: Золидрокс, золедроновая кислота, высокоэффективная жидкостная хроматография, валидация.

SUMMARY

VALIDATION EVALUATION OF THE METHOD FOR THE QUANTITATIVE DETERMINATION OF ZALEDRON ACID IN THE PREPARATION "ZOLIDROX"

[1]Suleymanov T.A., [1]Iskandarov V.H., [1]Balayeva E.Z., [2]Rahimova R.F.
[1]Azerbaijan Medical University, Department of Pharmaceutical Chemistry, Baku Azerbaijan;
[2]Ministry of Health of Republic of Azerbaijan, Analytical Expertise Center, Baku, Azerbaijan

The validation parameters of the method for determining the amount of zoledronic acid in Zolidrox with HPLC-UV were evaluated, and indicators such as accuracy, precision and linearity were determined. The studied method is characterized by high efficiency, durability and specificity. The accuracy limits of the method range from 100.67% to 101.55%; standard deviation of accuracy index 0.156%, reliability interval ±0.164; The linearity index was R2=0.996 in the concentration range of 0.64-0.96 mg/ml, the linear regression function was y=5393.08x+243.14. Thus, the method has indicators such as satisfactory accuracy, precision, linearity and system compatibility, and allows you to control the quality of Zolidrox during production and sales.
Keywords: Zolidrox, zoledronic acid, high-performance liquid chromatography, validation.

Redaksiyaya daxil olub: 21.06.2022
Çapa tövsiyə olunub: 05.07.2022
Rəyçi: dosent C.Y.Yusifova

SƏHİYYƏNİN TƏŞKİLİ | ОРГАНИЗАЦИЯ ЗДРАВООХРАНЕНИЯ | HEALTH ORGANIZATION

SERVICES PROVIDED BY CONSULTING AGENCIES FOR MEDICAL ORGANIZATIONS

[1]Aliyev R.R.*, [2]Abbaszada F.Kh.

[1]Azerbaijan Medical University, Department of Neurology, Baku, Azerbaijan;
[2]Azerbaijan National Science of Academy, Institute of Economics, Baku, Azerbaijan

Medical consulting agencies are companies that providing consulting services to the healthcare organisations in marketing, corporate ethics/training, data analysis, finance, accounting, insurance, efficient operational process and other related areas. Presented paper includes types of services a healthcare consulting firm can provide, based on the current literature regarding the importance of and demand for these services.

Keywords: healthcare organisations, consulting services, marketing, corporate ethics/training, healthcare analytics/data analysis, patent portal, consulting agency.

Introduction. There is a wide range of services provided by healthcare consulting firms worldwide. Agencies can provide the services related to their missions and are more feasible to implement in the new operating agency. Moreover, these services are chosen by reviewing their importance in the literature. There are several areas of services for medical consulting agencies such as marketing, corporate ethics/training, healthcare analytics/data analysis, finance, accounting, insurance, efficient operational process, patent portal and others. Below we discuss main services accourding to literature [1, 4].

Promotion Marketing. Agencies can assist hospitals to diversify their marketing strategies for attracting more patients. The rise in the number of hospitals created more options for the patients than before. Patients do not feel the need to go to the closest hospitals and rather do research online to decide on healthcare providers [1]. For this reason, it has become more important to have planned and budgeted marketing in the hospitals to reach new patients and make previous patients revisit when needed [1]. As the healthcare philosophy is to make patients priority, marketing techniques in other industries do not apply to healthcare services [2]. Every message given by the hospitals should show that the wellness and health of the patients is a priority. As the patients are more informative and knowledgeable, hospitals need the branding to connect with customers to create lasting relationships [3]. For this reason, healthcare institutions need to have a very specific marketing approach [2, 4].

Hospital marketing requires a team of specialists who acquired knowledge through years of study, training, and practice [5]. Hospital marketing helps the hospital to communicate with the patients. It can create a hospital image, provide information to the patients about medical services, increase customer satisfaction, and also bring new customers for increasing profit [6]. One of the main goals of healthcare marketing is to analyze the needs and desires of patients for meeting those necessities [7]. The analysis done by a consulting firm for marketing can help hospitals understand the needs of patients. This can be used to create a management strategy for more profit [6]. Moreover, hospital marketing is beneficial for the patients. Thanks to hospital marketing, consumers will have more information about medical services and can avoid "doctor shopping", which can result in worsened medical conditions and delayed treatment [6].

Considering all the information acquired from the literature, hospitals will demand a consulting agency that can successfully do hospital marketing because of its importance and complexity to implement. Moreover, hospital marketing fits the company`s mission: better quality health for consumers and high profits for hospitals. For this reason, companies can offer this service. Agencies can provide two types of marketing services depending on demand. One can be creating a marketing strategy for increasing the hospital's sales and profit. The second marketing strategy can be for creating the brand/image of the hospitals.

Corporate Ethics/Training. Companies can assist the hospitals in increasing corporation among

*e-mail: drrahimaliyev@gmail.com

workers of the hospitals by updating the work environment and providing training to workers. In the healthcare setting, communication is essential as a quick conversation or simple misunderstanding can create a life or death situation [8]. According to statistics, medical errors are the third cause of patient death in the USA, and 80% of these medical errors occurs because of miscommunication among healthcare specialists [9]. For this reason, patient safety and health are highly affected by effective teamwork in hospitals. The complexity of healthcare delivery makes effective teamwork even more critical [10]. Experts in patient safety also believe that collaboration and the ability to work in a group are essential in healthcare. If clinical and nonclinical staff work together, hospitals can achieve better patient outcomes and increase patient satisfaction [11]. In the hospital setting, not only the cooperation of healthcare workers but also cooperation between doctors and managers is important [12]. One study suggests that collaboration with managers can increase hospital performance [12].

The AHA's Health Research & Educational Trust (HRET) and American Organization of Nurse Executives (AONE) gives information and tools for improving communication and teamwork in hospitals [11]. These tools include creating a good workspace and environment for effective teamwork and training the workers. It is studied that 56% of the interactions between healthcare workers are unplanned, so the workspace is very important [8, 13, 14]. All the above-stated information shows the importance of cooperation in the hospital, and that is why the company intends to help hospitals to improve teamwork and communication. For this, companies can conduct an organizational analysis by collecting and analyzing data to find out what are the possible problems among the workers and provide solutions accordingly. These solutions can include providing training, changing workspace and other tools. Companies can assist hospital management in providing healthcare workers with needed workspace and training for which they usually do not have time or knowledge.

Healthcare Analytics/Data Analysis. With the increase in the new approaches to healthcare, the competition in the industry is rising [15]. In addition, with the increasing technological advancement, the health sector has also become the sector that can improve using data analytics [16]. In many countries, especially in the USA, hospitals are increasingly using data analysis to improve the hospital's performance and patient outcomes, track the care given to the patients, correct inefficiencies in patient care, and even do budgeting [17]. All of these assist hospitals to be competitive in the market while also giving the best care to their patients.

Healthcare analytics is gathering and analyzing healthcare data for better decision-making [18]. These data range from medical expenses, the behaviour of patients to demographic information of patients [16].

There are 4 types of data analysis that can answer different essential questions in the health sector [19]. First, descriptive analysis is done by using the data from the past to see the trends. This can be used to create patient profiles, analyze patient behaviour and etc. Predictive analysis, on the other hand, is used to forecast the future. This analysis can be used to determine future expenses, the number of staff needed in each department, and etc. Prescriptive analysis is used to analyze how a strategy or intervention will affect the hospitals. It can show how the performance or budget of the hospital will be affected after any new decision. Lastly, discovery analytics is used to find connections and/or outliers in the data [19]. This can be used to identify the unusual events and their cause.

Applying data analytics in the health sector can benefit hospitals from different aspects. The list of the potential benefits of data analysis is as follows:

Industry Advancement. Data analytics have long term benefits for industry improvement. By analyzing new and old data, hospitals can predict the spread of diseases, find treatment for diseases, and detect life-threatening situations in advance and many more [16]. According to ThoughtSpot, which is also a consulting firm providing data analysis services abroad, predictive analysis can help hospitals be prepared for situations that can negatively affect their operation [20]. Data analytics can help healthcare providers find connections to efficiently solve the challenges that hospitals are facing [15].

Financial Management/Cost Reduction. Hospi-

tals' data analytics can improve financial management as well. Hospitals and healthcare managers can use data analytics to analyze administrative and financial data to offer better services to patients at a lower cost. There is a vast amount of money spent by hospitals due to overstaffing or understaffing [16]. These problems can be resolved by predicting the number of patient admissions and the staff that is needed. In this way, unnecessary money spent by the hospitals can be prevented. Data-driven analytics is important to identify and intervene in disease early. It can also aid hospitals in predicting the rise of disease and treatment costs of patients [16]. For this reason, it can be an essential tool for budgeting.

Patientcare. One of the primary purposes of data analytics in the health sector is to help doctors make decisions regarding patient care faster to enhance the treatment [16, 20]. Collecting data in healthcare institutions can increase the communication between doctors and patients and improve the quality of care by giving insights into the patients' specific conditions [21]. It is especially beneficial if the patients have complex medical histories and multiple health conditions. The data analysis tools can predict the risk of developing diseases such as diabetes and help make an early diagnosis [16].

Considering the importance and benefits of data analysis in the health sector, it can be crucial for agencies to provide this service. Therefore, it is expected that the demand for this particular service will be high.

Patient Portals. Companies can assist hospitals in creating patient portals and/or websites. According to the American Hospital Association (AHA) and AVIA, which is the agency aiming to digitalize healthcare, 75% of the hospital executives in the USA are very conscious of the importance of digital innovation [22]. One of these innovations is patient portals. Healthcare portals are more widely used in all sizes of healthcare institutions in many countries [23]. A patient portal is a website or mobile application where patients can make appointments, track their visits, access lab results, prescriptions, billings, and talk with their provider [24]. Because of the convenience of the patient portals, an increasing number of patients registering and widely applying the portals [23]. Patient portals enable a patient to access their personal medical information and, in this way, improve patient engagement and communication [25]. The benefits of the patient portals include and are not limited to the discovery of the medical error, improvement of patient-doctor communication, and easier access to medical records [26]. Creating a patient portal can increase efficiency in hospitals as it makes communication easier and faster [23]. In addition, it can improve patient satisfaction and engagement and is very useful for both patients and hospitals [27].

Moreover, patient portals are helpful for collecting data about the patients who visit the hospitals. Patient portals include data about the patient visits and their frequency, the age of the patients, the doctors that take care of the patients and much other information. This information can be used to learn about the patient profiles and improve the services for attracting more patients. In addition, this data can be used to provide complementary data analysis services to the hospitals.

Taking into account all the benefits of the patient portal to hospitals and patients, they can be included in the services that companies can provide. However, the feasibility of providing these services can be evaluated before officially offering them in the first years of operation of medical consulting company.

REFERENCES – ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

1. Gandolf S. Healthcare Marketing: 15 Strategies to Gain More Patients Healthcare Success, the Healthcare Marketing Agency. Healthcare Success. 2020. Retrieved from https://healthcaresuccess.com/blog/healthcare-marketing/healthcare-marketing-strategy.html
2. Purcarea V.L. The impact of marketing strategies in healthcare systems // Journal of medicine and life, 2019. 12(2), 93-96. https://doi.org/10.25122/jml-2019-1003
3. Kumar P.N., Jacob A., Thota S. Impact of Healthcare Marketing and Branding on Hospital Services // Int J Res Foundation Hosp Healthc Adm, 2014, 2(1), 19-24. DOI:10.5005/jp-journals-10035-1010
4. Thomas R.K. Health Services Marketing, A Practitioner's Guide. Ed. Springer. 2008, DOI:10.1007/978-0-387-73606-8
5. Gandolf S. Why You Should Demand a Team of Healthcare Marketing Specialists Successful Healthcare Marketing. Healthcare Success. 2020, Retrieved from https://healthcare-success.com/blog/healthcare-marketing/why-you-should-demand-a-team-of-healthcare-marketing-specialists.html
6. Singh R. Hospital marketing management basics. Linkedin. 2018, March 10. Retrieved from https://www.linkedin.com/pulse/hospital-marketing-management-basics-ravi-singh/
7. Prasetyo A.A.R., Sulistiadi W. Effect of Digital Marketing in Hospitals: A Systematic Review. Promoting Population

Mental Health and Well-Being, 2019, 509–512. https://doi.org/10.26911/theicph.2019.04.47
8. Ossmann M. Five Ways to Improve Teamwork in Healthcare Environments. Herman Miller. 2021, Retrieved from https://www.hermanmiller.com/research/categories/white-papers/five-ways-to-improve-teamwork-in-healthcare-environments/
9. Makary M.A., Daniel M. Medical Error - the Third Leading Cause of Death in the US // BMJ. 2016, doi:10.1136/bmj.i2139
10. Babiker A., El Husseini M., Al Nemri A., Al Frayh A. et al. Healthcare professional development: Working as a team to improve patient care // Sudanese journal of paediatrics, 2014, 14(2), 9–16. PMC4949805
11. Bhatt J., Swick M. Focusing on teamwork and communication to improve patient safety. 2017, Retrieved from https://www.aha.org/news/blog/2017-03-15-focusing-team-work-and-communic…
12. Klopper-Kes A.H.J., Meerdink N., Wilderom C.P.M., Van Harten W.H. Effective cooperation influencing performance: a study in Dutch hospitals // International Journal for Quality in Healthcare, 2011, 23(1), 94–99. https://doi.org/10.1093/intqhc/mzq070
13. Real K., Bardach S.H., Bardach D.R. The role of the built environment: How decentralized nurse stations shape communication, patient care processes, and patient outcomes // Health Communication, 2017, 32, 1557-1570. doi:10.1080/104 10236.2016.1239302.
14. Zhang Y., Soroken L., Laccetti M., De Castillero E. R., Konadu A. Centralized to hybrid nurse station: Communication and teamwork among nursing staff // Journal of Nursing Education and Practice, 2015, 5(12), 34-41. doi:10.5430/ jnep.v5n12p34
15. IBM. Healthcare Analytics. Watson Health. 2021, Retrieved from https://www.ibm.com/topics/healthcare-analytics
16. Rangaiah M. What is Healthcare Data Analytics? Benefits of Healthcare Data Analytics. Analyticssteps. 2021, Retrieved from https://www.analyticssteps.com/blogs/what-healthcare-data-analytics
17. Sisense. Hospital Analytics. 2021, Retrieved from https://www.sisense.com/solutions/healthcare/hospital-analytics/
18. Wan T, Gurupur V. Understanding the Difference Between Healthcare Informatics and Healthcare Data Analytics in the Present State of Health Care Management. Health Serv Res Manag Epidemiol. 2020 Aug 25;7:2333392820952668. doi: 10.1177/2333392820952668. PMID: 32923520; PMCID: PMC7450285.
19. Birkmeyer C. An Intro to Big Data Analytics in Healthcare // ArborMetrix. 2020. Retrieved from https://www.arbormetrix.com/blog/intro-big-data-analytics-healthcare
20. ThoughtSpot. What Can Healthcare Analytics Do for Hospitals? 2021, Retrieved from https://www.thoughtspot.com/healthcare-analytics-hospitals
21. Cprime Studios. Why is data collection important in healthcare? 2021, November 18. Retrieved from https://cprimestudios.com/blog/why-data-collection-important-healthcare
22. Sullivan T. Here's where hospitals are investing in innovation today. Healthcare IT News. 2018, Retrieved from https://www.healthcareitnews.com/news/heres-where-hospitals-are-investing-innovation-today
23. Heier E. What is a Patient Portal and How Does it Help Medical Practices? Selecthub. 2021, Retrieved from https://www.selecthub.com/medical-software/what-is-patient-portal-how-help-medical-practices/
24. Vorvick L.J. Patient portals - an online tool for your health. MedlinePlus. 2020, Retrieved from https://medlineplus.gov/ency/patientinstructions/000880.htm
25. Dendere R., Slade C., Burton-Jones A., Sullivan C., Staib A., Janda M. Patient Portals Facilitating Engagement With Inpatient Electronic Medical Records: A Systematic Review // Journal of medical Internet research, 2019, 21(4). https://doi.org/10.2196/12779
26. Otte-Trojel, T., Bont A., Rundall T. G., Klundert J. How outcomes are achieved through patient portals: a realist review // Journal of the American Medical Informatics Association, 2014, 21(4), 751–757. https://doi.org/10.1136/amiajnl-2013-002501
27. Griffin A., Skinner A., Thornhill J., Weinberger M. Patient Portals: Who uses them? What features do they use? And do they reduce hospital readmissions? // Applied Clinical Informatics, 2016. 7(2), 489-501. doi: 10.4338/ACI-2016-01-RA-0003

XÜLASƏ

SƏHİYYƏ MÜƏSSİSƏLƏRİ ÜÇÜN KONSALTİNQ ŞİRKƏTLƏR TƏRƏFİNDƏN GÖSTƏRİLƏN XİDMƏTLƏR

[1]Əliyev R.R., [2]Abbaszadə F.X.
[1]Azərbaycan Tibb Universiteti, nevrologiya kafedrası, Bakı, Azərbaycan;
[2]Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan

Tibbi konsaltinq şirkətlər səhiyyə müəssisələrinə marketinq, korporativ etik davranış/treyninqlər, verilənlərin (məlumatların) analizi, maliyyə, mühasibatlıq, sığorta, effektiv fəaliyyət prosessi və digər sahələr üzrə konsaltinq xidmətlər göstərən kompaniyalardır. Təqdim edilmiş məqalədə müasir ədəbiyyatlara əsaslanaraq, səhiyyə üzrə konsaltinq şirkətlərin təmin edə biləcəyi xidmətlərin növlərini, onların vacibliyini və onlara olan tələbatı nəzərə alaraq müzakirə edilir.
Açar sözlər: səhiyyə təşkilatları, konsaltinq xidmətlər, marketinq, korporativ etik davranış/treyninqlər, səhiyyə analitikası/verilənlərin (məlumatların) analizi, pasiyent portalı, konsaltinq şirkət.

РЕЗЮМЕ

УСЛУГИ КОНСАЛТИНГОВЫХ АГЕНТСТВ ДЛЯ МЕДИЦИНСКИХ ОРГАНИЗАЦИЙ

[1]Алиев Р.Р., [2]Аббасзаде Ф.Х.

[1]Азербайджанский Медицинский Университет, кафедра неврологии, Баку, Азербайджан;
[2]Азербайджанская Национальная Академия Наук, Институт Экономики, Баку, Азербайджан

Медицинские консалтинговые агентства — это компании, которые предоставляют консультационные услуги организациям здравоохранения в области маркетинга, корпоративной этики/обучения, анализа данных, финансов, бухгалтерского учета, страхования, эффективного операционного процесса и других смежных областях. Представленная статья включает в себя виды услуг, которые может предоставить консалтинговая фирма в области здравоохранения, на основе современной литературы, в зависимости от важности и спроса на эти услуги.

Ключевые слова: организации здравоохранения, консалтинговые услуги, маркетинг, корпоративная этика/обучение, медицинская аналитика/анализ данных, патентный портал, консалтинговое агентство.

Redaksiyaya daxil olub: 04.04.2022
Çapa tövsiyə olunub: 02.05.2022
Rəyçi: t.ü.f.d. M.R.Calalov

Tibb və Elm Jurnalı, №3 (29) 2022, 68-72

PRAKTİK HƏKİMƏ KÖMƏK | **В ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ДОКТОРУ** | **HELP TO THE PRACTICAL DOCTOR**

AİLƏ HƏKİMLƏRİNİN TƏCRÜBƏSİNDƏ OYNAQLARIN ZƏDƏLƏNMƏSİNİN DİFERENSİAL DİAQNOSTİKASININ APARILMASINDA MÜASİR YANAŞMA

Zeynalov A.F.*, Hətəm-zadə E.M.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, ailə təbabəti kafedrası, Bakı, Azərbaycan

Məqalədə birləşdirici toxumanın diffuz xəstəlikləri və mübadilə pozulmaları olan pasiyentlərdə oynaq patologiyasını düzgün dəqiqləşdirmək məqsədilə müasir beynəlxalq meyarlarının istifadə qaydaları təqdim olunub. Onlar praktiki həkimlərə düzgün diaqnozdan şübhələnmək, onu təsdiqləmək, gələcəkdə aparılan müayinələrdə düzgün istiqaməti seçmək, vaxt itirmədən düzgün müalicəyə başlamaq və bunun nəticəsində invalidizasiya və ölüm tezliyini azaltmaq imkanını verir. Biz təqdim olunan materialda birləşdirici toxumanın zədələnməsi və mübadilə pozulmalarının əmələ gəlməsi ilə əlaqədar olan xəstəliklərdə oynaq sisteminin zədələnməsinin ayrı-ayrılıqda beynəlxalq meyarlarının klinik əhəmiyyətini ətraflı şəkildə diqqətlə izah etdik. Bunun praktiki əhəmiyyəti ona görə yüksəkdir ki, bu xəstəliklərin müalicə taktikasının mütləq komponentlərindən biri kimi qeyri-steroid iltihab əleyhinə preparatlar olur. Onların xüsusi təsirlərindən biri - arterial təzyiqin artmasıdır. Vaxtında təyin olumayan və vaxtında adekvat müalicə aparılmayan arterial hiperenziya nəticədə baş beyində qan dövranının pozulmasını əmələ gətirə bilər. Bu, invalidizasiya və ölüm tezliyinin artmasına səbəb ola bilər.

Açar sözlər: artrit, birləşdirici toxumanın diffuz xəstəlikləri, mübadilə pozulması, diferensial diaqnostika, qeyri-steroid iltihab əleyhinə dərmanlar, arterial hipertoniya.

Ailə həkimlərinin qarşısında duran əsas vəzifələrə düzgün diaqnozdan şübhələnmək və sonrakı müayinələri planlaşdırdıqda yalnız həqiqətən lazım olanlara üstünlük vermək aiddir. Bu, sığorta təbabətinin tələblərinə tam uyğundur. Buna görə biz bu məqalədə dayaq-hərəkət sisteminin əsas patologiyalarını müzakirə edəcəyik [2]. Bu mövzu böyük əhəmiyyət kəsb edir, çünki həmin patologiyanın olduğu xəstələrdə düzgün diaqnozu vaxtında dəqiqləşdirmədikdə və düzgün müalicənin aparılması gecikdikdə xəstə çox tez əmək qabiliyyətini itirir, onun həyat tərzi gündən-günə pisləşir, xəstə çox tez əlil olur, bu da böyük xərclərlə qarşılaşmasına səbəb olur. Buna görə də həkim müasir tendensiyalar ilə tanış olmalıdır, bununla yanaşı propedevtikanı unutmamalıdır, çünki o, xəstəlik barəsində çox vacib və həqiqi ilkin informasiya verə bilər. Məsələn, oynaqların vizual, qiymətləndirməsi, onlarda müxtəlif dəyişiklərin olub-olmamasının təyini, şişkinlik, deformasiya, deviasiya və s. kimi məlumatlar əldə etmək olar. Palpasiya zamanı oynağın yerli hərarətinin olub-olmaması və krepitasiya təyin olunur. Düzgün diaqnozu təyin olunması üçün anamnestik məlumatlara diqqətlə yanaşmaq lazımdır [19].

Bütün oynaqların zədələnməsi zaman onların iltihab mənşəli zədələnməsindən şübhə olduqda, diaqnozu dəqiqləşdirmək məqsədilə bir neçə diaqnostik meyarlardan istifadə etmək lazımdır. Biz həmin meyarları həkimlərin diqqətinə təqdim etmək istəyirik [2] və ümid edirik ki, onlar əsas ailə həkimlərin gündəlik təcrübəsində istifadə olunacaq:

- ilk növbədə həkim zədələnmiş oynaqların sayına (mono- , oliqo- və ya poliartrit) daha, sonra onların ölçülərinə (iri, orta və ya böyuk) fikir verməlidir;
- ağrıların olub-olmaması, olduğu təqdirdə – onların intensivliyi qiymətləndirilməlidir. Oynağın həcmi artdıqca, onun daxilində mayenin olub-olmaması qiymətləndirilməlidir;
- oynaqların funksional vəziyyətini – hərəkətlərin həcmi və bunun əsasında pozulmasının ağırlıq dərəcəsini qiymət əndirmək lazımdır;
- yerli və ümümü qızdırmanın olub-olmamasına diqqət yetirilməlidir;
- cavan, əvvəlcədən sağlam olan insanlarda immunitetin zəifləməsinə gətirib çıxaran xəstəliklərin, süzənəyin, sepsisin, narkotiklərdən venadaxili istfadənin olub-olmamasını araşdırmaq lazımdır;
- müxtəlif yaşlarda xəstələrdə və immunitetin zəifləməsinə gətirib çıxara bilən xroniki xəstəliklərin olub-olmaması haqqında dəqiq məlumat almaq üçün bütün mpvcud imkan-

*e-mail: aydin_zeynalov@rambler.ru

lardan istifadə etmək lazımdır (məsələn, 2-ci tip şəkərli dlabet, bədxassəli şişlər, insanın immunodefisit xəstəliyi və s., həmin patoloji vəziyyətlərin müddəti, qəbul olunan müalicə, onun effektivliyi, müşahdə olunan əks təsirləri);
- başqa xəstəliklərlə əlaqədər olan dərmanlar haqqında məlmatların toplanması, məsələn, tərkibində kalium olan preparatlar, sitostatiklər, şiş nekrozu faktorunun inhibitorları və s.;
- sinovial mayenin tərkibində neytrofil leykositozu haqqında məlumatların əldə olunması (>50 000 – 1 mm^3-da);
- oynaqların üstündə aparılan cərrahi əməliyyatlar haqqında məlumatlarının toplanası, endoprotezin olub olunmaması və ya endoskopik əməliyyatların aparılması;
- septik artritdən şübhə yarandıqda, mikrobioloji diaqnostikanı aparmaq üçün ən uyğun üsullardan biri – sinovial qişanın kultural müayinəsi hesab olunur. Həmin müayinəni aparmaq mümkün olmadıqda sinovial mayenin bakterioloji müayinəsini aparmaq məsləhət görülür (Qram üzrə rənqlənmə ilə bakterioskopiyadan və əkmədən istifadə);
- mikroorqanizmlərin nuklein turşusunun amplifikasiya üsulu (polimeraz zəncirvari reaksiya, PZR), o, tez-tez yalançı müsbət nəticə qöstərə bilər, xüsusilə də, oynaqların yoluxucu xəstəliklərində;
- klassik mikrobioloji müayinələrinin nəticələri və PZR, qram müsbət və mənfi mikroorqanizmlərin diaqnostikasında, eləcə də vərəm mikrobakteriyalarının təyini üçün çox uyğundur;
- indiki zəmanədə təqdim olunan klassik müayinələrini nəticələri nəzərə alaraq, onları ancaq skrininq analizi üçün istifadə eliyirlər;
- həmin müayinə üsulları mikroorqanizımlərin antibiotiklərə qarşı həssaslığını təsdiqləməyə imkan vermir;
